# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 46 (3370) Çərşənbə axşamı / 4-5 may 2021-ci il Qiymәti 40 qәpik


# Lavrovun yolu BAKIYADIR



***Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana işgüzar səfəri gözlənilir. Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova Lavrovun mayın 10-11-də Azərbaycana səfər edəcəyini, mayın 5-6-da isə Ermənistanda səfərdə olacağını deyib. Lavrovun Bakı səfəri öncəsi isə bir sıra maraqlı məlumatlar yayılıb. Son iki sutka ərzində sosial şəbəkələrdə azərbaycanlı hərbçilərin çəkdikləri videogörüntülər paylaşılıb. Kadrlarda Xandəndidən çıxarılan erməni ordusunun kolonu görünür.***

***Ağır texnika kolonu Laçına tərəf hərəkət edir. Digər kadrlarda "KAMAZ" kolonu görünür, bunlardan adətən canlı qüvvənin daşınmasında istifadə olunur. Hərbçilərin şərhlərinə görə, Ermənistan Silahlı Qüvvələri Qarabağdan çıxarılır, amma rəsmi olaraq bu barədə heç nə deyilmir. Azərbaycanlı hərbçilərin çəkdikləri digər kadrlarda Azərbaycan Silahlı Qüvvələrinin Əsgəran rayonunda Qarov kəndi ilə üzbəüz mövqeləri göstərilib. Həmin yüksəkliklərdən erməni tərəfinin mövqeləri aydın görünür, Xankəndi və Əsgəranın ətrafını da görmək olur.***

***Xatırladaq ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən erməni qüvvələr Qarabağdan çıxarılmalıdır, lakin erməni tərəfi bu bəndin yerinə yetirilməsini hər vəchlə yubadır. Rusiya XİN rəhbərinin İrəvana səfərdən 5 gün sonra Bakıya gəlməsi birmənalı qarşılanmır. Belə güman edilir ki, Lavrovun "portfelində" hansısa təkliflər olacaq və onlar ətrafında İrəvanda danışıqlar aparılandan sonra Kremldə müzakirəsinə ehtiyac yaranacaq. Maraqlıdır, bu səfər zamanı Lavrov hansı məsələ ilə bağlı Azərbaycanı razı salmağa çalışacaq. Prezident Putin onu bölgəyə hansı missiya ilə go?ndərir? Hafta.az bu suallara cavab tapmağa çalışıb.***

## Elxan Şahinoğlu, politoloq:



*Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərləri heç zaman xeyrimizə olmayıb*

***Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərləri heç zaman xeyrimizə olmayıb. Rusiyalı diplomatın bütün təşəbbüsləri ziyanımıza olub. 2016-cı ilin aprelində təcili Bakıya gəldi və inandırdı ki, münaqişənin həlli ilə bağlı "həll planı" işə düşəcək.***

İşğalçıya qarşı əks-hücumu dayandırdıq, ancaq Lavrov Bakını tərk etdikdən sonra Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması vacibliyini arxa plana keçirdi. Lavrov yenə gəlir. Rusiyanın xarici işlər naziri mayın 5-6-da Ermənistanda, mayın 10 və 11-də isə Azərbaycanda olacaq. Səfərlər arasındakı bir neçə günlük fasilə diqqətimi çəkdi. Belə çıxır ki, Lavrov mayın-5-də İrəvana gedəcək, mayın 6-da Moskvaya qayıdacaq, 4 gün keçdikdən sonra yenidən bölgəyə - Azərbaycana gələcək. Nədən Lavrov birbaşa İrəvandan Bakıya gəlməyəcək? Görünür, Lavrovun hər iki tərəf üçün "sürpiz" təklifləri var. Lavrov həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qabaqlamaq istəyir.

Ərdoğan daha əvvəl bəyan etmişdi ki, Ramazan bayramında, yəni mayın ortalarında Şuşaya gəlmək istəyir. Bakı və Ankara bu səfərə hazırlıqlara başlayıb. Moskva bu gedişatdan narahatdır. Kreml Ərdoğanın Şuşaya səfəri zamanı irəli sürəcək təkliflərdən ehtiyat edir. Ərdoğanın aprelin 24-də azərbaycanlı həmkarı İlham Əliyevlə telefon danışığından sonra "Birgə addımlar atacağıq" açıqlaması da Kremli narahat etməmiş deyil. Lavrov Bakıya hansı təkliflə gəlirsə-gəlsin, Kremlin növbəti hiyləsinə aldanmaq olmaz. Rusiyanın Qarabağdakı hərbçiləri Xankəndidə "hərbi parad" keçirəcək və bundan bir gün sonra Lavrov Bakıya gəlib bizi sakitləşdirməyə və "balanslı xarici siyasəti" qorumağa çağıracaq. Rusiya ilə Türkiyə bizim üçün eyni ola bilməz. Bunu Lavrova da anlatmağın zamanıdır.

## Tofiq Abbasov, siyasi ekspert:



*Rusiyanın ən böyük qayğısı, problemi Ermənistandır*

***Rusiya XİN rəhbərinin Bakıya səfəri regiondakı vəziyyətlə əlaqəlidir. Azərbaycan münaqişənin həllini hərbi yolla bitirsə də, Ermənistan bununla razılaşmır. Ortada üçtərəfli saziş və yerinə yetirilməsi tələb olunan müddəalar var. Azərbaycan üzərinə düşən işləri vaxtlı-vaxtında yerinə yetirsə də, Ermənistan həm anlaşılmaz mövqe sərgiləyir, həm də bəzi qüvvələr orada hökumətin adından cəfəng danışırlar.***

Hökumətin daxilində xarici işlər naziri və baş nazir arasında olan ixtilaflar Ermənistandakı böhranı açıq şəkildə göstərir. Bir yandan siyasi qeyri-sabitlik, işsizlik, təminatsızlıq bu gərginliyi doğuran əsas səbəblərdir. Ona görə də Rusiyanın ən böyük qayğısı, problemi Ermənistandır. Rusiyanın Azərbaycanla bağlı elə bir müşkül məsələsi yoxdur. Birincisi, ona görə ki, Bakı ilə Moskva arasında siyasi dialoq sabiq axarda davam edir, digər tərəfdən qarşılıqlı anlaşma var. Bəli, vaxtaşırı regionda sülhməramlılarla bağlı problemlər yaransa da, münasibətlərimizdə qaranlıq məqamlar yoxdur.

Rusiya ilə Ermənistan arasında çox böyük qalmaqallı problemlər yaşanır. İndi Ermənistanda Rusiyanı satqın ölkə adlandırırlar. Ermənilər üçtərəfli bəyanatda Azərbaycanla yanaşı Ermənistanın da imzasının olmasını özləri üçün problem görürlər. Məhz bununla bağlı Rusiyanın böyük narahatçılığı olduğuna görə Lavrov bölgəyə səfər edir. Lavrov çalışacaq ki, bütün bu problemlərin çözümü ilə bağlı aydın bir mənzərə yaratsın. Təbii ki, Ermənistanı da inandırsın ki, belə getsə Rusiya hansısa qeyri-adi təsirlərə əl atmış olacaq. Müttəfiqlik əlaqələri olan Ermənistanın Rusiyanı satqın adlandırmasını Rusiya həzm edə bilmir. Rusiyanı regionda qeyri-konstruktiv əməllərə imza atması ilə hədələyir və bildirir ki, onların alternativ çıxış yolları da var. Bütün bunlar hamısı bizim diqqətimizdə olan məsələlərdir, Azərbaycanın siyasi rəhbərliyi bu prosesləri tənzimləyir. Lavrovun Bakı səfəri zamanı Qarabağda keçiriləcək 9 may paradı ilə bağlı Azərbaycanı sakitləşdirmə cəhdlərinin olacağı ehtimalı real deyil. Qarabağda keçiriləcək 9 may paradını şişirtmək lazım deyil. Bu paradda Azərbaycanın da payı var, o müharibədə Azərbaycanın da oğul qızları döyüşüb. O ki qaldı məhz Rusiya sülhməramlılarının Azərbaycanada özbaşına parad keçirmək məsələsinə, Azərbaycan rəhbərliyinin buna münasibəti olacaq".

✍ *Tahirə Qafarlı*

## MÜSAHİB

### Günahkar axtarsaq, məişət zorakılığının öhdəsindən gələ bilmərik



**Sədaqət Qəhrəmanova,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini

***Bu gün ölkəmizdə ən çox müzakirə edilən məsələlər sırasında hər birimizi narahat məqamlar intiharlar, boşanmalar, uşaq və qadın hüquqları, aliment məsələsi və s.dir. Son günlərdə məişət zorakılığı ilə bağlı hadisələrin sayı da artmaqdadır. Deməк olar hər gün, ərin qadını öldürülməsi, döyməsi və s. bu tipli xəbərlərlə tanış oluruq. "Həftə içi" qəzetinin budəfəki müsahibi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini Sədaqət Qəhrəmanovadır. Sədaqət xanımla bir çox maraqlı məsələlər ətrafında söhbətləşdik. Buyurun, siz də oxuyun...***

***Məişət zorakılığı o demək deyil ki, kimsə kimisə döydü, öldürdü. Məişət zorakılığının ən çətin məqamı sosial-psixoloji və iqtisadi-mənəvi zorakılıqdır***

▸▸ Səh. 6

## MÜSAHİB



**Anatoli Rafailov,**
Milli Məclisin yəhudi əsilli deputatı

■ Həmin qadın dünyasını dəyişmiş həyat yoldaşının gözünün buynuz təbəqəsini azərbaycanlı əlil əsgərə hədiyyə edib...

■ Yəhudilərlə azərbaycanlıların dostluq əlaqələri də böyük tarixi köklərə söykənir...

■ Hər il İsrailin 40 milyon barel və ya 1,5 milyard dollar dəyərində illik neft idxalı Azərbaycandan tədarük olunur...

▸▸ Səh. 3

## GÜNÜN FOTOSU...



Leyla Əliyeva Qızılağac Milli Parkında...

## GÜNÜN SİTATI

*Mən bütün hökumətləri azad, müstəqil və fərqli medianı dəstəkləmək üçün əllərindən gələni etməyə çağırıram*



**Antonio Quterreş,**
BMT-nin Baş katibi

## KARİKATURA



Ritmimizi öldürən koronavirus...

## Sülhməramlıların nöqsanları var, amma...

**Şair Ramaldanov,**
hərbi ekspert

Əsas hədəflər sırasında Zəngəzur, Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə təmin edilməsi dayanır...

▸▸ Səh. 5

## STATİSTİKA



■ **Bu ilin aprelin 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 49 117,5 mln. ABŞ dolları təşkil edib. Ehtiyatlar 2020-ci ilin ÜDM-nin 115,3%-nə bərabər olub.**

Qeyd edək ki, Asiya İnkişaf Bankının yenilənmiş proqnozlarına əsasən, bu ilin sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 0,4% artaraq 50,1 mlrd. ABŞ dollarına çatacaq.



▸▸ Səh. 4

## Beynəlxalq qiymətləndirmə - təhsilə yön verən tədqiqat

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 1.391.040,0 (bir milyon üç yüz doxsan bir min qırx) ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılsın.

- Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

- Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## “PKK-nın içində ermənilər də var”



> “Qətiyyən “erməni soyqırımı” olmayıb. Tarixdə bu açıq və dəqiq şəkildə yazılıb”

***“PKK kürd qardaşlarımızın təmsilçisi ola bilməz”. Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.***

Nazir qeyd edib ki, Türkiyənin, Türkiyə Silahlı Qüvvələrinin kürdlərlə heç bir problemi yoxdur və bütün kürdlər Türkiyə Respublikasının bir nömrəli vətəndaşlarıdır: “PKK heç bir halda kürd qardaşlarımızın təmsilçisi ola bilməz. Onsuz da əsasən onlarda kimlik problemi var. PKK-nın içində erməni də var, avropalı, afrikalı da var, təəssüf ki, türk də var. Dolayısı ilə PKK terror təşkilatıdır. Türkiyənin tək hədəfi terrorçulardır”.

“Sadəcə terror təşkilatlarına qarşı yox, Türkiyəyə və türk millətinə yönəlmiş hər cür təhdidə qarşı mübarizə aparırıq”. Hulusi Akar deyib.

Terrorçulara qarşı Suriyanın və İraqın şimalında əməliyyatların davam etdiyini xatırladan nazir qeyd edib ki, Türkiyə dost və qardaş ölkələr Azərbaycan və Liviyanın yanındadır. “Bu fədakarlıq və qəhrəmanlıqla biz embarqolara, məhdudiyyətlərin hamısının öhdəsindən gəldik, gəlməyə də davam edəcəyik. Niyə? Savaşmaq üçün əzmimiz və qətiyyətimiz var. Tək nəfər də qalsaq sona qədər bayrağımızı, sancağımızı yüksəkdə tutmaq üçün mübarizəmizi davam etdirəcəyik”, - deyə H. Akar vurğulayıb.

“Qətiyyən “erməni soyqırımı” olmayıb. Tarixdə bu açıq və dəqiq şəkildə yazılıb”. Hulusi Akar 1915-ci il hadisələrinə dair deyib.

O bildirib ki, siyasətçilər tarixçilik edə bilməz. “Amerikalıların milli arxivləri var. Orada bu məsələ ilə bağlı bir xeyli sənəd var. Amerikalılar, ingilislər o sənədlərdə çox açıq və dəqiq şəkildə deyirlər ki, “türklər və ermənilər 500 ildir bərabər yaşayırlar, əgər biz qarışmasaq, bu nizamı pozmasaq 500 il daha bərabər yaşayarlar”. Sənəd açıqdır”, - deyə türkiyəli nazir vurğulayıb.

## Baydenin Putindən istəyi

**ABŞ Prezidenti Co Baydenin mümkün görüşdə Rusiya lideri Vladimir Putinlə ikitərəfli münasibətlərin sabitləşdirilməsini müzakirə etmək niyyətindədir. Bunu ABŞ dövlət katibi Entoni Blinken deyib.**

“Bayden çoxdan deyib ki, əgər Rusiya ehtiyatsız və təcavüzkar davranmağa qərar versə, biz cavab tədbirləri görəcəyik. Ancaq biz ikitərəfli münasibətləri gərginləşdirməyə çalışmırıq, daha sabit, daha proqnozlaşdırıla bilən bir əlaqəyə üstünlük veririk. Əgər Rusiya bu istiqamətdə irəliləsə, biz də eynisini edərik. Fikrimcə Prezident Baydenin Putinlə görüşü zamanı bunu birbaşa deməyə imkanı olacaq”, - Blinken bildirib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, “KAPITALBANK” ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Qəbul

# Türkiyə-Azərbaycan dostluğu ən yüksək zirvədədir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edib. Səfirlə söhbət edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:***



> Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq

- Xoş gəlmisiniz, sizi salamlayıram. Əminəm ki, Azərbaycanda günləriniz xoş keçəcək. Əslində, vətəninizdəsiniz və əminəm ki, burada özünüzü evinizdəki kimi hiss edəcəksiniz.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz hər zaman birbirimizin yanındayıq. İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya bir daha göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi. İkinci Qarabağ müharibəsində Qələbəmiz əlbəttə ki, bölgədə yeni bir reallıq yaratdı.

Türkiyə və Azərbaycan bölgədə öz imkanlarını genişləndirdilər, bizim rolumuz, təsir imkanlarımız artdı və artacaq. Birgə həyata keçirdiyimiz bütün layihələr, təşəbbüslər bölgədə sabitliyin, sülhün təmin edilməsi üçün önəmli rol oynayır.



Bizim əlaqələrimiz haqqında saatlarla danışmaq olar, siz bütün bunları yaxşı bilirsiniz. Əlaqələrimizin təməlində xalqlarımızın qardaşlığı və liderlərin siyasi iradəsi dayanır. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bütün məsələlərdə bir-birini dəstəkləyəcək, bütün məsələlərdə bir-birinin yanında olacaq və öz əməli işləri, addımları ilə yaşadığımız bölgədə sülhün bərqərar olmasında səylərini davam etdirəcəklər. Mən əminəm ki, siz fəaliyyətiniz müddətində bu əlaqələrin daha da inkişaf etməsi üçün öz səylərinizi göstərəcəksiniz. Sizə uğurlar arzulayıram və “Azərbaycana - Vətəninizə xoş gəlmisiniz!” deyirəm.

**Səfir Cahit Bağçı dedi:**

-Xoş gördük, cənab Prezident. İlk növbədə, məni qəbul etdiyiniz üçün təşəkkür edirəm, Zati-alinizi və hörmətli birinci xanımı salamlayıram.

Cənab Prezidentimizin Sizə salamları və ehtiramı var. Zəfəriniz mübarəkdir, təbrik edirik. İnşallah, mən fəaliyyət dönəmimdə əlaqələrimizin daha da inkişafına, daha da irəli aparılmasına səy göstərəcəyəm. Çox təşəkkür edirəm.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul edib.

**Səfiri salamlayan Prezident İlham Əliyev dedi:**

> Beynəlxalq təşkilatlarda tərəfdaşlığımıza gəldikdə, əminəm ki, biz bir-birimizi dəstəkləməyə, bir-birimizin maraqlarını müdafiə etməyə davam edəcəyik

- Çox sağ olun. Xoş gəlmisiniz. Cənab səfir, sizi görməyə çox şadam. Ümid edirəm ki, Azərbaycanda çox mənalı vaxt keçirəcəksiniz. Həmçinin sizdən Prezident Vuçiçə ən xoş salamlarımı çatdırmağınızı xahiş edirəm. Bilirsiniz ki, biz çox fəal ünsiyyətdə oluruq və dəfələrlə görüşlərimiz olub. Həsab edirəm ki, prezidentlər arasında çox mehriban münasibətlər var və buda, ölkələr arasında münasibətlər üçün vacibdir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı siz əməkdaşlığımızı irəli aparmaq üçün əlinizdən gələni edəcəksiniz. Bizim üçün Serbiya ilə əməkdaşlıq böyük əhəmiyyət kəsb edir. Sizin dediyiniz kimi ölkələrimiz strateji tərəfdaşdır. Əməkdaşlıq sahələri indi bir çox istiqamətləri əhatə edir. Hesab edirəm ki, əsas diqqəti artıq böyük irəliləyiş əldə etdiyimiz sahələrə və fəal əməkdaşlığın ilkin mərhələlərində olduğumuz bəzi sahələrdə hansı işləri görə biləcəyimiz məsələsinə yetirməliyik. Beynəlxalq təşkilatlarda tərəfdaşlığımıza gəldikdə, əminəm ki, biz bir-birimizi dəstəkləməyə, bir-birimizin maraqlarını müdafiə etməyə davam edəcəyik. Biz artıq bir sıra beynəlxalq təşkilatlarda çox yüksək səviyyəli həmrəylik nümayiş etdiririk. Bu, vacibdir. Çünki bu, həqiqətən də bizim əməkdaşlığın səmimi mahiyyətini əks etdirir.

İkitərəfli münasibətlərə gəldikdə, əlbəttə ki, çox yüksək səviyyəli siyasi təmasların olmasını nəzərə alaraq, biz iqtisadi inkişaf sahəsi üzərində diqqətimizi cəmləməliyik. Siz bilirsiniz ki, biz indi işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin ilkin mərhələsindəyik. Ümidvaram ki, Serbiya şirkətləri də, dost ölkələrin şirkətləri kimi fəal olacaqlar, gələcəklər, onlara bizim planlarımızla bağlı ilkin məlumat təqdim olunacaq. Onlar dost ölkələrdən olan beynəlxalq şirkətlər komandasına qoşularaq yenidənqurmada iştirak edəcəklər. Düşünürəm ki, diqqəti cəmləşdirəcək çoxlu sahələr olacaq. Əminəm ki, Azərbaycanda görəcək işləriniz çox olacaq. Sizə vəzifələrinizi uğurla həyata keçirməyi arzulayıram.

# “Qarabağdakı xarı bülbüllər hər bahar şəhidlərimiz üçün açacaq”

## Açıqlama

***Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı vətəndaşlara müraciət ünvanlayıb. Hafta.az-ın yazdığına görə, səfir bildirib ki, Türkiyə ilə Azərbaycan arasında ürəklərdə unikal və köklü olan müstəsna qardaşlığın şahidiyik. Şübhəsiz ki, bu qardaşlıq ümumi tarixdən, müştərək mədəniyyətdən kök alır.***



**Cahit Bağçı,**
Türkiyənin ölkəmizdəki səfiri



İki dövlətin qurucuları olan Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, Ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” sözləri və prezidentlər Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin “Gücümüz birliyimizdə, birliyimiz gücümüzdədir” bəyanatları bu qardaşlığı qorumağa içilən andın və ikitərəfli əlaqələrimizi daha da irəliyə aparmanın iradəsidir.

“Azərbaycanın qədim torpağı Qarabağda ermənilərin təxminən otuz illik qanlı işğalına 44 gün sürən Vətən Müharibəsi nəticəsində son qoyuldu. Son zamanlar Azərbaycan - Türkiyə münasibətlərində bütün sahələr üzrə böyük irəliləyiş qeydə alınıb: “Bu zəfər qardaşlarımız qədər bizi - Türkiyədəki vətəndaşlarımızı da sevindirib. Türkiyə bu müharibədə qardaşlığın tələblərinə əsasən Azərbaycanı yalnız buraxmadı. Müharibənin başından axırınadək qardaşlarımızın yanında olsuq, hər cür dəstək verərək dosta və düşmənə birliyin gücünü isbatladıq. Biz inanırıq ki, artıq Qarabağdakı xarı bülbüllər hər bahar şəhidlərimiz üçün açacaq, onların qoxusunu Qafqazın incisi Qarabağdan bütün türk dünyasına yayacaqlar” deyən səfir Bağçı əlavə edib ki, Türkiyə ilə Azərbaycan arasında siyasi, iqtisadi, ticari, hərbi, sosial və mədəni əlaqələr bu gün geosiyasi mahiyyət daşımaqdadır.

“Bakı - Tiflis - Ceyhan neft boru kəməri və Bakı - Tiflis - Ərzurum təbii qaz boru xəttindən sonra enerji sahəsində tədarük təhlükəsizliyi, müxtəliflik baxımından regional və qlobal önəmə sahib olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) fəaliyyətə başlayıb. Bakı-Tbilisi-Qars dəmir yolu həm də Türkiyə və Azərbaycanın rəhbərliyi altında bölgədə nəqliyyat şəbəkələrinin inkişafı üçün əhəmiyyətli potensiala malik olan bir layihədir. İkitərəfli əməkdaşlığımız artıq yalnız Türkiyə və Azərbaycana fayda gətirmək hüdudlarını keçərək regional əməkdaşlığa yol açıb. Türkiyə və Azərbaycan bölgənin təhlükəsizliyinə və sabitliyinə töhfə vermək üçün bütün imkanlarını və güclərini birləşdirib” deyən cənab Bağçıya görə, ikitərəfli əməkdaşlığın yüksək inkişaf etdiyi və bir çox yeni fürsətin yarandığı belə bir tarixi dövrdə Türkiyənin Bakıdakı səfiri kimi xidmət etmək onun üçün böyük şərəfdir:

“Bütün iş yoldaşlarım, əlaqədar təşkilat nümayəndələri və mülki strukturlarla birlikdə bu vəzifənin əhəmiyyəti və məsuliyyətini dərk edərək səylə, çox ciddi şəkildə, diqqətlə, səmimiyyətlə və fədakarlıqla çalışacaq, münasibətlərimizi daha da irəli aparmağa və qüvvətləndirməyə səy göstərəcəyik. Səfirliyimizin bu səyləri Naxçıvan və Gəncədəki konsulluqlarımız, eləcə də Lənkərandakı Fəxri Konsulluğumuz tərəfindən dəstəklənir. Türkiyənin Azərbaycandakı bütün rəsmi nümayəndələri olaraq, biz ev sahibi olan Azərbaycan səlahiyyətliləri və qardaşımız olan Azərbaycan Türkləri ilə sıx əməkdaşlıq etməyə çalışacaq, eyni zamanda, bu ölkədə Türkiyə Cümhuriyyəti vətəndaşlarına kömək və rəhbərlik edəcəyik”.

> İkitərəfli əməkdaşlığımız artıq yalnız Türkiyə və Azərbaycana fayda gətirmək hüdudlarını keçərək regional əməkdaşlığa yol açıb

***Vüsal Tağıbəyli***

## Müsahib

# Yəhudi deputat: "Vətən müharibəsində yəhudi gənclər də fəal iştirak ediblər"

**Milli Məclisin yəhudi deputatı Anatoli Rafailov "Həftə içi"nə müsahibə verib. O, ixtisasca həkimdir. Birinci Qarabağ savaşında həkim kimi iştirak edib. 40 ildən çoxdur ki, cərrah kimi yüzlərlə xəstənin, o cümlədən onlarla hərbçinin, qazinin həyatını xilas edib. 2020-ci ildə 53 saylı Quba-Qusar seçki dairəsindən Milli Məclisin deputatı seçilib. MM-nin Səhiyyə komitəsinin üzvü, Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.**

***- Azərbaycan-İsrail Parlamentlərarası Dostluq Komissiyasının rəhbəri kimi Qarabağdakı 44 günlük müzəffər savaşımızdan sonrakı dövrdə İsrail-Azərbaycan əməkdaşlığında hansı yeni önəmli faktları qeyd edə bilərsiniz?***

- Bildiyiniz kimi, İsrail dövləti hər zaman Azərbaycanı dəstəkləyib. İkinci Qarabağ müharibəsində də İsrail Azərbaycanı dəstəkləyən dövlətlər arasında oldu. İsrailin ölkəmizə verdiyi ən müasir texnologiyalarla təchiz olunmuş müxtəlif silahların Milli Ordumuzun Qarabağdakı qələbəsindəki rolu haqda kifayət qədər danışılıb.

Təqdirəlayiqdir ki, İsrail dövləti 44 günlük müharibədə Azərbaycanın qələbəsindən sonra da müxtəlif sahələrdə dəstəyini Azərbaycandan əsirgəmədi. Müxtəlif humanitar aksiyalar da icra olundu. Bildiyiniz kimi, YAŞAT Fondunun təşəbbüsü, İsrailin Azərbaycandakı səfirliyinin və akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin dəstəyi ilə Azərbaycana gələn israilli oftalmoloqlar yüzlərlə hərbçinin gözlərini müayinə edib və bəziləri üzərində ən ağır göz əməliyyatlarını həyata keçiriblər.

***Bu məqamda bir israilli qadının çox xeyirxah addımını dilə gətirməmək olmur. Belə ki, həmin qadın dünyasını dəyişmiş həyat yoldaşının gözünün buynuz təbəqəsini azərbaycanlı əlil əsgərə - İkinci Qarabağ müharibəsinin qazisi Arif Hacıyevə hədiyyə edib. Nəticədə hazırda həmin Qarabağ qazisinin gözlərinin nuru bərpa olunub.***

Bilirik ki, müharibədə insanlar yalnız fiziki deyil, psixoloji travmalar da alırlar. Bunu nəzərə alaraq mən bu il martın 18-də İsrailin "Briut" klinikasının yüksək kateqoriyalı psixoloq-həkimləri Qusar rayonunda olduq, şəhidlərimizin ailə üzvləri və qazilərimiz üçün tibbi konsultasiya keçirdik. Bunun da sözsüz ki, həmin insanların psixoloji durumunun normallaşmasında xeyli rol oynadı...

İsraillə Azərbaycan arasında dostluq əlaqələrinin tarixi çox qədimdir. Dostluq münasibətləri qarşılıqlı maraqlara söykənir. Azərbaycan-İsrail arasındakı qarşılıqlı faydalı münasibətlər dünyada

> *"Hər il İsrailin 40 milyon barel və ya 1,5 milyard dollar dəyərində illik neft idxalı Azərbaycandan tədarük olunur...*

və regionda sülhün və əminamanlığın möhkəmlənməsinə xidmət edir.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra onu tanıyan ilk dövlətlərdən biri də İsrail olub. 1992-ci il 7 aprel tarixindən etibarən Azərbaycanla diplomatik əlaqələr qurulub. İkitərəfli əlaqələr xüsusi olaraq təhlükəsizlik məsələləri, enerji ticarəti, eləcə də mədəniyyət və təhsil sahələrində sıx əməkdaşlıq fonunda ilbəil genişlənir.

Öncə dediyimiz kimi, bu gün İsrail Azərbaycanın silah və yüksək texnologiyalarla bağlı əsas təchizatçısına çevrilib. Eyni zamanda, Azərbaycan İsrail dövlətinə dəstək verən bir neçə müsəlman ölkəsi sırasındadır. Azərbaycanın İsrailə, ölkəmizdə yaşayan digər xalqlara, o cümlədən yəhudi icmasına qarşı olan dost münasibəti bütün dünyada tolerantlığın ən gözəl nümunəsinə çevrilib. Bu il fevralın 23-də Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi mən İsrailin Azərbaycandakı səfiri cənab Corc Dik ilə görüşdüm. Hörmətli səfir iki ölkə arasında mövcud olan sıx əlaqələrin gələcəkdə də davam etdiriləcəyinə dərin inamını ifadə etdi. Bu günlərdə Azərbaycanla İsrail arasında diplomatik münasibətlərin qurulmasının 28-ci ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib. Mən tədbirdə çıxış edərək vurğuladım ki, Azərbaycan bu gün dünyada İsraildən sonra yəhudilərin kompakt yaşadığı yeganə ölkədir.

***Bilirsiniz ki, yəhudilərlə azərbaycanlıların dostluq əlaqələri də böyük tarixi köklərə söykənir. Yəhudilərin İsraildən sonra kompakt şəkildə yaşadıqları yerlərdən biri də Azərbaycan, o cümlədən Quba rayonudur. Bu insanlar bir-birinin xeyrində-şərində yaxından iştirak edirlər. Kədərli günlərində bir-birinə həyan olur, şad günlərində sevinclərini bölüşürlər. Qarabağın azadlığı uğrunda döyüşlərdə digər xalqların nümayəndələri kimi, yəhudi gənclər də fəal iştirak ediblər. Lazım olanda canlarından belə keçiblər. Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun adı bu gün hər evdə, ailədə hörmətlə çəkilir...***

***- Azərbaycan-İsrail dostluğu və strateji əməkdaşlığının gücləndirilməsi üçün hansı yeni işlər görülməkdədir?***

- Hazırda Azərbaycan-İsrail əlaqələrinin



**Anatoli Rafailov,**
Milli Məclisin yəhudi əsilli deputatı

daha da möhkəmlənməsi üçün bütün mümkün işlər görülür. İsraildə əvvəllər olmuş Azərbaycan Ticarət Palatası bərpa edilir. Turizmlə bağlı yeni təşkilat qurulur. Əvvəllər Azərbaycan və İsrail turistləri qarşılıqlı olaraq Türkiyənin turist təşkilatı vasitəsilə səyahət edirdilər. İndi, təəssüf ki, rəsmi Təl-Əvivlə Ankara arasındakı münasibətlərdə müəyyən gərginlik yarandığından İsrail turistləri əsasən Azərbaycana gəlməkdədirlər.

***- Azərbaycanın İsraildə səfirliyinin olmaması, yəqin ki, müəyyən problemlər yaradır?***

- Səfirlikdən söhbət düşmüşkən deyim ki, bu gün Azərbaycan beynəlxalq aləmdə elə böyük nüfuz sahibidir ki, ən böyük super dövlətlər də müəyyən məsələlərin həllində Azərbaycanla hesablaşmağa məcbur olurlar. Doğrudur, bir çox dövlətlərdə bizim səfirliyimiz yoxdur. Düşünürəm yaxın gələcəkdə bu kimi məsələlər öz həllini tapacaq. Azərbaycanın İsraildə səfirliyi olmasa da İsrail dövləti ilə Azərbaycan dövləti arasındakı dostluq çox yüksək səviyyədədir. Hər il İsrailin 40 milyon barel və ya 1,5 milyard dollar dəyərində illik neft idxalı Azərbaycandan tədarük olunur. Onu da deyim ki, öncə haqqında danışdığımız Azərbaycan-İsrail Ticarət Palatası bir az da diplomatik funksiyalar daşıyacaq. Çünki bizim İsraildə böyük diasporumuz var. Azərbaycandan vaxtilə köçmüş 80 minə yaxın yəhudi əsilli azərbaycanlı yaşayır İsraildə...

***- İsraildə təcavüzkar Ermənistanı dəstəkləyən və Azərbaycan-İsrail dostluğuna qarşı çıxan bəzi qrupların fəaliyyəti ilə bağlı hansı işlər görülürmü?***

- Təbii ki, belə işlər görülür. İsrail dövlətinin Azərbaycana olan rəğbəti ilə yanaşı, orada yaşayan azərbaycanlı yəhudilər də Azərbaycanla qəlbən çox yaxındırlar. Onlar İsraildə Azərbaycanla bağlı bütün tədbirlərdə iştirak etməyə çalışırlar. Biz bunların hamısını izləyir, mütəmadi müzakirələr aparırıq. Azərbaycanlıların İsraildə müxtəlif təşkilatları da var. Məsələn, Akkuda "Şirinnixiya"-"Azərbaycan evi" adlı qurum fəaliyyət göstərir. Həmin təşkilatın üzvü olan azərbaycanlı yəhudilər Ermənistanın Azərbaycana qarşı hər hansı addımlarına qarşı müxtəlif tədbirlər keçirirlər. Məsələn, İsraildəki erməni kilsələri qarşısında aksiyalar keçirirlər. Bundan başqa "Bakı" multikultural mərkəzinin direktoru Arie Qut da aktiv fəaliyyət göstərir. "AZİZ" adlı mədəni təşkilat da mövcuddur. Azərbaycan təşkilatları Xocalı soyqırımının anım günlərində də tədbirlər keçirirlər. Qarşılıqlı olaraq Azərbaycanda da yəhudi Xolokost soyqırımının anım günləri qeyd edilir. Yəhudilər ölkəmizdə sərbəst şəkildə özlərinin bütün bayram və tarixi günlərini qeyd edirlər.

Ümumiyyətlə, İsraildən və digər ölkələrdən gələn yəhudilər deyir ki, biz heç yerdə Azərbaycanda olduğu kimi, özümüzü sərbəst hiss etmirik. Hətta Avropada yəhudilər öz milli baş örtükləri -kipa ilə gəzən zaman problem yaşayırlar, ancaq Azərbaycanda həmin örtüklə sərbəst gəzirlər.

Unutmaq olmaz ki, İkinci Dünya müharibəsi zamanı 50 minə yaxın yəhudi Avropanın müharibə gedən ölkələrindən qaçaraq məhz Azərbaycanda sığınacaq tapıblar...

***- Deputat seçildiyinizdən bəri keçən müddətdə Quba və Qusar rayonlarından olan seçicilərinizin hansı problemlərini həll etmisiz?***

- Təəssüf ki, ötən il koronavirusun ortaya çıxması və yayılması ilə də yadda qaldı. Onu qeyd edim ki, bütün dünyada koronavirus xəstəliyi geniş yayıldığından bir çox insanların həyatına son qoymaqla yanaşı, həm də dövlətlərin iqtisadiyyatına böyük ziyan vurdu. Bütün bunlarla yanaşı, həyat davam edir və Milli Məclisin Səhiyyə komitəsinin üzvü, bir həkim kimi mən də Vətənimiz üçün əlimdən gələni etməyə çalışmışam və çalışıram. Vaxtaşırı KİV-də və sosial şəbəkələrədə müxtəlif mövzulara dair, o cümlədən səhiyyə ilə bağlı çıxışlar etmişəm, müsahibələr vermişəm. O ki qaldı problemlərə, bizim üçün əsas xalqın yanında olmaqdır, onların problemlərini, qayğılarını öyrənmək və qanun çərçivəsində bu problemlərin həlli üçün çalışmaqdır. Biz də bunu edirik...

Son vaxtlar ən çox şəhid ailələri, qazilərlə görüşlərim olur. Şəhid ailələri, əsasən, şəhidlərimizin adlarının əbədiləşdirilməsi ilə əlaqədar müraciət edirlər. Bir çox müraciətlər isə əlillik poblemləri ilə bağlı olur. Kəndlərdə yol, içməli su çatışmazlığı və başqa problemləri də dilə gətirənlər olur.

Seçicilərin məni axtarıb-aralamalarını gözləmirəm. Özüm vaxtaşırı onların yanına getməyə, qayğı və problemləri ilə yaxından maraqlanmağa çalışıram. Bir müddət əvvəl Quba şəhərindən 75 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən Xaltan kəndində olmuşam.

Əvvəllər Qubadan Xaltana gedib-çıxmaq üçün hətta səhərdən-axşama qədər yol getmək lazım gəlirdi. İndi isə vəziyyət tamamilə dəyişib. Belə ki, ötən ilin sonlarında uzunluğu 50 kilometrdən Quba-Qonaqkənd yolunun asfaltlanmasından sonra o ətrafdakı kəndlərə gediş-gəliş çox asanlaşıb. Xaltan camaatı da indi bu rahat və gözəl yoldan istifadə edir. Ümid edirlər ki, Qonaqkənddən Xaltana kimi yolun asfaltlanması da tezliklə mümkün olacaq. İnsafən, son illər cənab Prezidentin diqqət və qayğısı sayəsində Qubanın, Qusarın kəndlərində yol tikintisi çox sürətlə gedir.

Deputat seçildiyim Quba və Qusar rayonlarında hamı məni əvvəllər bir həkim kimi tanıyıb. Bu gün bir deputat kimi görüşə gedərkən vətəndaşlar digər məsələlər ilə yanaşı, səhhətləri ilə də bağlı mənə çox müraciət edirlər. Məsuliyyətim ikiqat artıb.

Əgər əvvəllər yalnız xəstələri bir həkim-travmatoloq kimi müalicə edirdimsə, bu gün yaxın dostlarıma, müxtəlif xəstəxanalara müraciət edərək xəstələrin müalicələri üçün onlara kömək etməyi xahiş edirəm. Mənim ailəmdə hamı həkimdir. Görünür, taleyimə belə yazılıb ki, həmişə insanların qayğısını çəkməliyik. Həkimlik çox ülvi peşədir. Gərək həmişə kiminsə qayğısını çəkəsən. Uzun illər mən travmatoloq-cərrah işləmişəm. Deputatlıqla həkimlik arasında bir növ yaxın sıx bağlılıq var. Həkim işləyəndə də daim kiminsə qayğısını çəkmişəm. Bu gün deputat olaraq yenə də insanların, seçicilərin qayğı və problemlərini çəkir, hər bir seçicinin üzləşdiyi problemi öz problemim, qayğım sayıram.

***- Anatoli müəllim, yəqin ki, Birinci Qarabağ müharibəsində həkim kimi iştirak etdiyiniz zaman qazandığınız böyük təcrübədə bu gün həm adi seçiciləriniz, həm də Qarabağ qazilərinin sağlamlıq problemlərinin həllində böyük rol oynayır?.***

- Bəli. Tale elə gətirdi ki, 1990-cı illərin əvvəllərində gənc həkim kimi Birinci Qarabağ müharibəsinə qatıldım və bir cərrah kimi yüzlərlə yaralının həyatını xilas etməli oldum. Yadımdadır, elə gün olurdu ki, gün ərzində 10-12 saat fasiləsiz cərrahiyyə əməliyyatları aparmalı olurdum.



Qarabağda ağır döyüşlər gedirdi, cəbhədən çox sayda yaralı gətirirdilər. Mən hələ o zaman müharibənin insan taleyinə vurduğu ağır zərbələrin şahidi olmuşam. Bəzən bütün günü ayaq üstə qaldığım üçün iş gününün sonuna yaxın ayaqlarım şişirdi. Başa düşürdüm ki, dayanmaq olmaz. Hər dəqiqə, hər saat çox qiymətliydi, hər bir an kiminsə həyatı demək idi. O vaxtdan 30 ilə yaxın vaxt ötüb. Hazırda deputat seçilsəm də, sevimli və şərəfli peşəmdən ayrılmamışam. Bu gün də Vətən müharibəsində yaralanan əsgərlərimizin, qazilərimizin öz sağlamlıqlarını bərpa etmələri üçün əlimdən gələni edirəm...

*Sultan Laçın*

# Azərbaycanın ABŞ üçün əhəmiyyəti artır

***Mayın 1-dən ABŞ-ın Əfqanıstandakı qoşunlarını çıxarmağa başlaması və Mərkəzi Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizlərinin yerləşdiyi coğrafi məkanda yaranan yeni reallıqlar Birləşmiş Ştatlar üçün əlverişli mövqeyə malik Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırır.***



■ Bu fikirlər tanınmış Qərb politoloqu, "Heritage" Fondunun Daqlas və Sara Elison Mərkəzinin direktoru Lyuk Kofinin "Arabnews" qəzetində dərc olunmuş analitik məqaləsində yer alıb.

Hazırkı şəraitdə Qərb ölkələrinin Mərkəzi Asiya regionuna yeganə çıxışının Türkiyə-Gürcüstan-Azərbaycan dəhlizi üzərindən mümkün olacağını qeyd edən müəllif yazır: "Bu kontekstdə ABŞ Prezidentinin "erməni soyqırımı" bəyanatı və Ankara ilə əlaqələri gərginləşdirməsi vəziyyəti daha da pisləşdirib. Lakin Azərbaycan ərazisindən quru və hava yolu ilə Mərkəzi Asiyaya çıxış Vaşinqton üçün yeganə mümkün variant kimi görünür. Bu marşrut Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin adını daşıyan və İpək Yolu üzərində əhəmiyyətli məntəqə olan 100 kilometrlik "Ganja Gap" dəhlizidir. ABŞ ordusu Əfqanıstana təchizatın göndərilməsində bu dəhlizdən istifadə edib. Beləliklə, Vaşinqton Mərkəzi Asiya regionunda möhkəmlənmək istəyirsə, Türkiyə ilə münasibətləri yaxşılaşdırmalı və Azərbaycana daha çox diqqət yetirməlidir. Bu məqsədlə güclü iqtisadi əlaqələr və diplomatik səylər lazımdır".

Politoloq vurğulayıb ki, Rusiya və Çinin Mərkəzi Asiyada, həmçinin Əfqanıstanda təsirini artırmaq planları qarşısında ABŞ üçün ən məqbul variant Türkiyə və Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməkdir.

# "Moskovski komsomolets" Yerevandan yazdı...

***Ermənilər qazanc dalınca kütləvi şəkildə Rusiyaya üz tuturlar. Bu barədə "Moskovski komsomolets" nəşrində dərc olunan məqalədə deyilir. Məqalədə qeyd olunur ki, Ermənistanın müasir müstəqil dövlət kimi mövcud olduğu 30 il ərzində sakit və bolluq illərini barmaqla saymaq olar. 1990-cı illərin əvvəllərində Ermənistan əhalisinin sayı 3,5 milyon nəfər olduğu halda, hazırda əhalinin sayı 2,9 milyon nəfərədək azalıb.***

Respublika sakinlərindən Gevorq adlı biri məqalə müəllifi ilə söhbətində bildirir ki, Qarabağ uğrunda müharibədə məğlubiyyətdən sonra mal-qara sahiblərinin əksəriyyəti narahatlıq keçirir, çünki mal-qaranı otarmağa yer olmadığından onlar tələf olur. Əvvəllər bunu Qarabağda edirdilər, indi Ermənistanda hər şey bahadır. Hər neçə ildən bir təbii fəlakət onların evini dağıdır, onlar isə yenə də həmin yerlərdə ev tikirlər. Acından ölməmək və hansısa ehtiyatı tutmaqdan ötrü öz sahələrində kifayət qədər məhsul yetirşdirmək mümkündür".

Moskvadan Yerevana köçən Anna qəzetin müxbiri ilə söhbətində bildirib ki, əvvəllər o, oğlunu orduya xidmətə göndərməyi planlaşdırırdı. İndi isə o başa düşmür ki, İkinci Qarabağ müharibəsində insanlar nədən ötrü həlak olub. Anna deyib: "Ölkə kiçikdir və sən daim elə hisslə yaşayırsan ki, sabah müharibənin artıq Ermənistan ərazisində başlana biləcəyinə heç kim zəmanət verməyəcək".

Məqalədə deyilir ki, ölkədə məmur özbaşınalığı ilə bağlı böyük problem yaşanır. İş o yerə çatıb ki, hətta Qarabağa könüllü döyüşə yollananlar dövlətdən yardım ala bilmirlər, çünki onların



**Ermənilər qazanc dalınca kütləvi şəkildə Rusiyaya üz tuturlar...**

laşıb. Ermənistanın əmək qabiliyyətli əhalisinin qalan hissəsi əmək miqrasiyasına məcbur olub. Məsələn, respublikanın Şirak vilayətində kişilərin 70 faizi Rusiyada işləyir. Qadınlar uşaqları tərbiyə etmək və ev-eşiyə baxmaqdan ötrü qalırlar. Ailələr qışda 2-3 aylığa bir araya gəlir, muzdla çalışan ailə başçıları Yeni il və uşaqların qış tətilini onlarla birgə keçirirlər. Fevralın sonlarında onlar yenidən Rusiyaya qayıdırlar. Bax beləcə təqribən 500 min erməni "səyahət edir". Yerevanda və şəhərətrafı zonada yaşayan sakinlərlə söhbətdən sonra məqalə müəllifi belə qənaətə gəlib ki, bu insanların həyat səviyyəsinin "orta həddən aşağı" kimi müəyyən etmək mümkündür.

**Müəllif yazır:** "Məsələn, kəndlərdə sürüşmə zonalarında yaşayan erməniləri görmək olar, çünki həmin yerlərdə torpaq məhsuldar statusu qanunda nəzərdə tutulmayıb. Müvafiq olaraq, onlar müalicə xərclərini özləri çəkir və Ermənistandakı sosial-iqtisadi vəziyyət nəzərə alınarsa, bu, həddən artıq çətin başa gəlir.

Müəllif daha sonra yazır ki, yerli sakinlərin fikrincə, ölkədə korrupsiya baş alıb gedir. Məsələn, Yerevan sakini Vaqan deyir: "Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra yalnız ilk bir neçə ay ərzində korrupsiya azaldı. Sonra hər şey əvvəlki vəziyyətinə qayıtdı. Təkcə yol polisləri rüşvət götürmür... Düzdür, onlar ümumiyyətlə bir iş görmürlər - yollarda hərc-mərclikdir. Belə ki, hər kəs rüşvət alır: vergi, gömrük, şəhər hakimiyyət orqanları... Əsasən, necə deyərlər, "işləri tezləşdirmək" üçün pul alırlar, lakin bizdə yuxarı dairələrdə də korrupsiya qalmaqalları az deyil".

*Azad*

# Beynəlxalq qiymətləndirmə - təhsilə yön verən tədqiqat

## Layihə

***Keyfiyyətli təhsil cəmiyyətin inkişafına təkan verən aparıcı qüvvə sayılır. Sürətlə dəyişən dünyada zamanla təhsilin keyfiyyətini qiymətləndirən meyarlar da dəyişir. Bu gün dünyanın təxminən 60-dan çox ölkəsi beynəlxalq qiymətləndirmə tədqiqatlarına etibar edir. Qeyd edək ki, beynəlxalq qiymətləndirmə ölkələrin təhsil sistemlərində ümumi olan və ümumi olduğuna görə də müqayisə edilə biləcək göstəriciləri araşdırmaqla, son nəticədə onların beynəlxalq bazarın tələblərinə uyğun olub-olmamasını öyrənir.***



**Azərbaycan beynəlxalq qiymətləndirmə tədqiqatlarında mövqeyini daha da yaxşılaşdırmağı hədəfləyir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Hazırda 60-dan çox ölkənin iştirak etdiyi beynəlxalq proqramlar müxtəlif ölkələrin ibtidai təhsilin son sinifləri və orta məktəb iştirakçılarının təhsil nailiyyətlərini müqayisəli şəkildə qiymətləndirməklə əsas fənlərin tədrisində keyfiyyət dəyişmələrinin tendensiyasını müəyyənləşdirir, fənlərin tədrisinin keyfiyyətinə təsir edən faktorları üzə çıxarır, kurikulumlar, eyni zamanda müxtəlif ölkələrin təhsil prosesinin təşkilinin əsasları haqqında məlumatlar toplayır. TİMSS beynəlxalq tədqiqatının keçirilməsində başlıca məqsəd qlobal kontekstdə sistemin nailiyyət meyillərini araşdırmaq, təhsil siyasəti barədə məlumat toplamaq, yenilənmiş siyasətin təsirini qiymətləndirmək, aşağı göstəricisi olan sahələri dəqiqləşdirmək və müvafiq islahatlara təkan vermək, eyni zamanda, şagirdlərin riyaziyyat və təbiət elmləri üzrə biliklərinin nəticələri ilə yanaşı, öyrətmə və öyrənmə üçün ev və məktəb kontekstləri haqqında vacib məlumatlar əldə etməkdən ibarətdir.

Xatırladaq ki, Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən 1995-ci ildən etibarən və hər dörd ildən bir (1999, 2003, 2007, 2011, 2015 və 2019) keçirilən TİMSS tədqiqatı IV və VIII sinif şagirdlərinin riyaziyyat və təbiət elmləri üzrə biliklərini qiymətləndirən beynəlxalq bir araşdırmadır. Riyaziyyat və təbiət elmlərinə aid fənləri qiymətləndirdiyi üçün TİMSS təhsilin effektivliyini ölçən dəyərli mənbə sayılır. Belə ki, STEM kimi tanınan elm - özlüyündə texnologiya, mühəndislik və riyaziyyat kurikulumlarının əsas sahələridir. Məlumdur ki, indiki zamanda bir çox peşələr riyaziyyat və təbiət elmlərinə aid fənlər üzrə sadə biliklərin olmasını tələb edir və bu meylin gələcəkdə artması gözlənilir. STEM peşələrində çalışan insanlar aclıq, təbii yaşayış sahələrinin məhv olması, eləcə də, dünya iqtisadiyyatında davamlı böyümə və stabillik kimi dünyəvi problemlərin həll yollarını tapmaq məsuliyyətini daşıyırlar. Riyaziyyat və təbiət elmlərinə aid fənlər gündəlik həyatın təməlini təşkil edir. Təbiət elmlərinə aid fənlər hava, torpaq, su, eləcə də, ərzaq və yanacaq ehtiyatlarının daxil olduğu həyat sahələrini öyrənir. Riyaziyyat bizə gündəlik işləri idarə etməyə kömək edir və bizim asılı olduğumuz kompüter, ağıllı telefon və televizorlar kimi texnologiyaların inkişafında onun rolu çox vacibdir. Yəni, riyaziyyat və təbiət elmlərinə aid fənlər həyatımızın hər sahəsində yayıldığına görə İEA kimi tanınan Təlim Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya təxminən 60 ildir ki, riyaziyyat və təbiət elmlərinə aid fənlər üzrə beynəlxalq qiymətləndirmələr keçirir. İEA milli tədqiqat institutları və dövlət agentlikləri ilə çalışan müstəqil beynəlxalq təşkilatdır. O, 1959-cu ildən bu günə qədər kros-



**Rüfət Əzizov,**
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru

milli (çoxsaylı ölkələri əhatə edən) nailiyyətlərin öyrənilməsini həyata keçirir. 1960-cı illərdə İEA müxtəlif təhsil sistemlərinə malik olan ölkələr arasında siyasi təsirlərin daha dərindən anlaşılmasına nail olmaq üçün təhsil nailiyyətlərinin beynəlxalq müqayisəli qiymətləndirilməsində öncül olmuşdur. Hazırda İEA-nın Amsterdam ofisi bir sıra beynəlxalq tədqiqatlarda ölkələrin iştirakını təmin edir və İEA-nın Hamburq bölməsi məlumatlar hazırlayıb yayan və tədqiqat aparan böyük mərkəzdir. İEA-nın əsas proqramı olan TİMSS dünyanın hər yerində iştirakçı ölkələrin öz nümayəndələri tərəfindən keçirilməsi təmin edilən korporativ tədqiqatdır. TİMSS Boston Kollecinin Linç Məktəbindəki TİMSS və PİRLS Beynəlxalq Tədqiqatlar Mərkəzi tərəfindən idarə edilir. TİMSS və PİRLS birlikdə üç fundamental fənn - riyaziyyat, təbiət elmləri fənni və oxu üzrə nailiyyətləri ölçür.Ümumilikdə, öz təhsil sistemlərinin effektivliyini qiymətləndirmək üçün təxminən 70-ə yaxın ölkə TİMSS-in məlumatlarından istifadə edir və hər qiymətləndirmədə TİMSS-ə yeni ölkələr qoşulur. Ölkəmiz sonuncu dəfə TİMSS tədqiqatında 2011-ci ildə iştirak edib və yalnız IV sinif şagirdləri ilə təmsil olunub.

> *“Dərin tədqiqatlar bizə atılan addımların effektiv və müvəffəqiyyətli olmasına imkan verəcək*

■ **Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru Rüfət Əzizovun sözlərinə görə, Təhsil İnstitutu ölkəmizdə beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsində və nəticələrin tədqiq olunmasında əsas rol oynayır:** “Milli Prioritetlərə dair sənəddə də ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq əsas vəzifələrdən biridir.Adıçəkilən beynəlxalq qiymətləndirmələr tədqiqat xarakteri daşıyır və ölkələrə təhsil siyasətini formalaşdırmağa kömək edir. Təhsil İnstitutu ölkəmizdə beynəlxalq qiymətləndirmə tədqiqatlarının həyata keçirilməsində və nəticələrin tədqiq olunmasında əsas rol oynayır. İnstitutun bu fəaliyyət sahəsi ilə məşğul olan ayrıca şöbəsi də mövcuddur. Qeyd etmək lazımdır ki, ölkəmizdə tətbiq olunan bütün beynəlxalq qiymətləndirmə tədqiqatlarında (PISA, PIRLS, TIMSS) son illərdə irəliləyiş müşahidə olunmaqdadır. Ən yüksək yaxşılaşma isə TIMSS (riyaziyyat üzrə 463 (2011) - 515 (2019)) beynəlxalq qiymətləndirməsində müşahidə olunmuşdur. Məhz bu cür tədqiqatlar nəticəsində hansı istiqamətdə inkişafetdirici addımların atılması ilə bağlı fikir formalaşır. 2016-cı ildən bəri bu qiymətləndirmə tədqiqatlarının tələblərinə uyğun müxtəlif layihələr: “STEAM Azərbaycan”, “İcma əsaslı məktəbəqədər təhsil”, “Zərdabi - İbtidai sinif şagirdlərinin oxu bacarıqlarının inkişafı” həyata keçirilir, 5 yaşlı uşaqlar üçün məktəbəhazırlıq qrupları təşkil olunur. Əldə olunmuş müvəffəqiyyətlərlə yanaşı görüləcək işlər də hələ çoxdur. Belə ki, beynəlxalq qiymətləndirmələrdə şagirdlərimiz riyaziyyatdan nisbətən yaxşı nəticə göstərsələr də, təbiət fənləri üzrə nəticələrin qənaətbəxş olmadığını görürük. Təhsil İnstitutu tərəfindən hazırda təbiət fənlərinin məzmununun təkmilləşdirilməsi istiqamətində görülən işlər yaxın gələcəkdə nəticələrin yaxşılaşmasına zəmin yaradacaq. Məzmunun beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə son illərdə dünyanın ən yaxşı təhsil sisteminə malik ölkələrindən biri və beynəlxalq qiymətləndirmə tədqiqatlarında ən yüksək nəticələr göstərən Sinqapurla əməkdaşlıq edilir. Vurğulayaq ki, beynəlxalq qiymətləndirmələr bilik yarışı deyil, təhsil sistemimizin cari vəziyyətini qiymətləndirmək, boşluqları tapıb aradan qaldırmaq üçün müvafiq addımlar atılmasına imkan yaradan tədqiqatlardır. Beynəlxalq qiymətləndirmələrin nəticələri mütəmadi tədqiq olunur və digər ölkələrin nəticələrinin yaxşılaşdırmasına yönəlmiş addımlar öyrənilir. Nəticələrə hansı sosial-iqtisadi faktorların, xüsusilə maliyyələşmənin həcmi və makro səviyyədə sistemin təsirləri araşdırılır. Dərin tədqiqatlar bizə atılan addımların effektiv və müvəffəqiyyətli olmasına imkan verəcək”.

### Yeri gəlmişkən...

**Ölkəmizdə tətbiq olunan bütün beynəlxalq qiymətləndirmə tədqiqatlarında (PISA, PIRLS, TIMSS) son illərdə irəliləyiş müşahidə olunmaqdadır. Ən yüksək yaxşılaşma isə TIMSS (riyaziyyat üzrə 463 (2011) - 515 (2019)) beynəlxalq qiymətləndirməsində müşahidə olunub. Məsələn, dünya üzrə TİMSS-2019 beynəlxalq qiymətləndirməsində 64 ölkə üzrə 580 000-dən çox şagird, 310000 valideyn, 52 000 müəllim, 19000 məktəb iştirak edib.**

Azərbaycan üzrə 194 məktəb, 5300 şagird, təxminən 5300 valideyn, 310 müəllim TİMSS-2019 beynəlxalq qiymətləndirməsinə cəlb olunub. Ölkəmiz bu tədqiqatda yalnız IV sinif şagirdləri ilə təmsil olunub. Riyaziyyat üzrə tədqiqat nəticələrinə əsasən, ölkəmiz tarixi nəticə əldə edib.

Azərbaycan şagirdləri 515 balla bu istiqamətdə tədqiqatda iştirak edən 58 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycanın TİMSS-2019-cu il riyaziyyat nailiyyəti TİMSS-2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 52 ballıq artımla 463 baldan 515 bala yüksəlib.

Bu nəticə ilə Azərbaycan regionda ən yüksək nəticə göstərən ölkə sayılır. Təbiət fənləri üzrə isə ölkəmiz 427 balla 50-ci yerdə qərarlaşıb. Bundan başqa, ”mükəmməl” və ”yüksək” qiymətləndirmə oriyentirinə (benchmark) çatan şagirdlərimizin sayında əhəmiyyətli artım müşahidə edilib. Belə ki, 2011-ci ildə 21 faiz şagirdimiz riyaziyyat üzrə ”mükəmməl” və ”yüksək” qiymətləndirmə nailiyyəti göstərmişdirsə, 2019-cu ildə bu nəticə 36 faiz olub.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# “Dünyada erməni məsələsini təbliğ edən 450 vəqf, dərnək, institut var”

***“I Dünya Müharibəsində ingilislər, ərəblərlə yəhudilərdən, Rusiya isə Şərqi Anadoluda ermənilərdən öz məqsədləri naminə istifadə elədilər. Rusların müstəqillik vədlərinə uyan, günümüzdəki PKK-nın bənzəri erməni terror təşkilatları olan “Daşnaksütyun” və “Hıncak” silahlıları müharibədə türk əsgərləri arxadan vurdular. Hətta bu azmış kimi, yerli mülki erməni əhalini də təxribata sürükləyib, qiyama sövq etdirdilər. Onlar silahlanıb müsəlman türk, kürd və çərkəzlərə divan tutmağa başladılar. Nəticədə Osmanlı dövləti ruslarla əməkdaşlıq edən erməniləri “Təhcir Qanunu”, yəni “Köç etdirmə Qanunu” ilə döyüş bölgəsindən köçürdü”.***

Hafta.az-ın yazdığına görə, bu sözləri türkiyəli tarixçi-yazar Süleyman Kocabaş bildirib. Onun sözlərinə görə, isti dənizlərə enmə kimi özülsüz planlarını reallaşdırmaq istəyən ruslar, ermənilərdən ilk dəfə “vəkalət döyüşçüləri” olaraq I Pyotrun zamanında istifadə ediblər. İkinci dəfə 13 iyul 1878-ci ildə imzalanan Berlin Antlaşmasından sonra, ingilislər əsas rəqiblərindən olan Rusiyanın isti dənizlərə enmə xülyasının qarşısını almaq üçün bölgədə yaşayan ermənilərə müstəqil Ermənistan quracağı sözünü verib. Hətta həmin anlaşmada Şərqi Anadoluda “Erməni İslahatı Maddəsi” adıyla 23-cü maddə qeyd olunubmuş. Tarixçinin sözlərinə görə, sultan II Əbdülhəmid, islahatlar və ardıyla da gələcək muxtariyyətin müstəqilliklə nəticələnəcəyini düşünərək bu maddəni icra eləməyib. Buna qarşılıq olaraq, ingilislərlə ermənilər dünyanın diqqətini çəkmək üçün, hələ 1892-1900-cü illərdə bölgədə indiki PKK-nın etdikləri kimi terrorlara əl atmağa başlayırlar. O gündən bəri erməni xəyanət və silahlı hücunları ara vermir. “Soyqırım müstəvisində dünyada ən böyük haqsızlığa məruz qalmış millət türklərdir” deyən Süleyman Kocabaş bildirir ki, əslində Avropada böyük gücə çevrilmiş dövlətlərin hər biri həm öz ərazilərində, həm də müstəmləkələrində mütləq kütləvi qırğınlar törədiblər. Amma özlərini elə aparırlar ki, türk milləti soyqırım törədib və bu yalanı dünyaya təşviq edirlər.

> *“Soyqırım müstəvisində dünyada ən böyük haqsızlığa məruz qalmış millət türklərdir...*



**Süleyman Kocabaş,**
türkiyəli tarixçi-yazar

“Əslinə baxılarsa, indiki çətin vəziyyətdə qalmamızın günahının bir qismi özümüzdədir. Çünki bu məsələylə bağlı bütün tarixi sənədlərin toplandığı arxivlərin əlimizdə olmasına baxmayaraq, vaxtında şantajçılara qarşı çıxmadıq və üzərimizə gələn ölkələrə sənəd-sübutlar əsasında doğru olanı anlatmadıq. Türkiyə hökumətlərinin prosesə münasibəti hər zaman populizmə əsaslanıb. Sadəcə hər zaman “Biz soyqırım törətmədik, bu fikirlər əsassızdır” dedik, amma böyük dövlətlər buna inanmadı. Lazım idi ki, əvvəlki türk hökumətləri hər zaman ciddi addımlar atıb, daha təsirli tədbirlər görsünlər. Qeyd edim ki, bu gün dünya üzrə erməni məsələsini istədikləri kimi təbliğ edən 450 vəqf, dərnək, institut və sair mövcuddur. Bizdə isə bu qurumlardan heç biri olmayıb”, - deyir Süleyman Kocabaş.

Balkanlarda və digər yerlərdə yaşayan türklərə edilən zülm barədə kimsənin səsini çıxarmamasına fikir bildirən Kocabaşa görə, Osmanlı süquta uğradılarkən Balkanlarda Yunanıstan, Serbiya, Monteneqro, Rumıniya, Bolqarıstan kimi “kiçik xristian dövlətlər” yaradılıb. “Ən pisi odur ki, bu dövlətciklər yaradılarkən ilk işləri ərazilərində irqçi addımlar atmaq olub. Əlbəttə ki, birmənalı şəkildə müsəlman türklər hədəf alınıb və imkan daxilində onlara daha çox ziyan vurmağa çalışılıb. Bu barədə biz demirik, amerikalı alim McKarfi öz kitablarında açıq-aşkar yazır. Qeyd edir ki, Balkanlardan 5 milyon müsəlman zorla köçürülüb və bir o qədəri də soyqırımlar nəticəsində qətlə yetirilib. Qısası, Osmanlının son dönəmində “müsəlmansız və türksüz Balkanlar” planı həyata keçirmək istəyiblər”, - deyir tarixçi yazar.

Kocabaş deyir ki, Amerika və Avropanın bir çox ölkələrində tarixçilər doktorluq, dosent və professorluq dissertasiyalarını hər zaman xarici işlər nazirliklərindən alıblar. Odur ki, Türkiyədə də eyni addımlar atılmalıdır.

“Prezident Rəcəb tayyib Ərdoğan təkrar-təkrar deyir ki, gəlin tarixçilərdən ibarət komissiya yaradaq, hər ölkə öz arxivlərini açsın, məsələlərə siyasətçilər yox, tarixçilər qərar versinlər. Amma qarşı tərəf bunu qəbul eləmir. Çünki əsl günahkar özləridir və yaxşı bilirlər ki, arxivlər açılsa, yalanları üzə çıxacaq”, - deyir Süleyman Kocabaş.

✍ ***Vüsal Tağıbəyli***

## XƏBƏRİNİZ OLSUN...



■ Mədəniyyət naziri Anar Kərimov koronavirusdan (COVID-19) sağalıb. Bu barədə Nazirliyin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Məryəm Qafarzadə deyib. M.Qafarzadə mədəniyyət nazirinin bu həftədən etibarən işə çıxdığını vurğulayıb.

---

■ Mayın 8-də güzəştli şərtlərlə pensiya hüququna malik şəxslər də daxil olmaqla respublika üzrə bütün pensiyaların ödənişi tam yekunlaşacaq. Bu barədə hafta.az-a Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentindən bildirilib.

---

■ 2021-ci ilin martında Azərbaycanın sosial şəbəkə bazarında “YouTube” 29,32 faiz payla birinci yerdə qərarlaşıb. İkinci yerdə 25,74 faiz göstərici ilə “Twitter”, üçüncü yerdə 20,23 faiz göstərici ilə “Instagram” qərarlaşıb. ”Facebook” istifadəçilərinin fəallığı ötən ay 14,63 faizə bərabər olub.

---



■ Yeni Azərbaycan Partiyasına (YAP) yeni mətbuat katibi təyin edilib. YAP-dan hafta.az-a verilən məlumata görə, Elməddin Quliyev Yeni Azərbaycan Partiyasının (YAP) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri təyin olunub. E.Quliyev bundan əvvəl Dövlət Statistika Komitəsinin mətbuat katibi vəzifəsində çalışıb.

---

■ Dövlət Gömrük Komitəsi cari ilin yanvar-aprel ayları üzrə nəzərdə tutulan büdcə öhdəliyinə 117.28 % əməl edib. Nəzərdə tutulan proqnozdan əlavə 193.54 milyon manat gömrük ödənişlərinin toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunub.

---



■ Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) indiyədək dövlət büdcəsinə 114 milyard 654 milyon manat transfert edib. Cari ilin birinci rübündə ARDNF tərəfindən dövlət büdcəsinə 2 milyard 513,7 milyon manat transfert olunub. Neft Fondu bu vaxtadək Mərkəzi Banka isə 3 milyard 949,5 milyon manat transfert edib.

---

■ Növbəti il dünya əhalisinin əksəriyyətini koronavirusa qarşı peyvəndlə təmin etmək üçün 35-45 milyard dollar vəsait lazımdır. Bu sözləri ÜST-ün baş direktoru Tedros Adanom Qebreyesus deyib.

---

■ Rusiya SVİFT-dən çıxarılması ehtimalına qarşı hazırlıq görür. Bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova deyib. ”Rusiyanın SVİFT-dən çıxarılma ehtimalını görürük, ancaq riskləri və potensial zərərləri azaltmaq üçün işlər görülür”, - Zaxarova bildirib.

## Gündəm



Şair Ramaldanov,
hərbi ekspert

**Ermənilərin sülh prosesini pozub, növbəti savaşa hazırlaşmaları barədə iddiaları artmaqdadır. Bu günlərdə ermənilərin Azərbaycanın Zəngilan, Qubadlı sərhədində törətdikləri hərbi təxribatlara dair yeni videogörüntülər də yayıldı. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən hərbi ekspert Şair Ramaldanov mühüm məqamlara diqqət çəkib.**

# Sülhməramlıların nöqsanları var, amma...

***- Şair müəllim, ermənilər hərbi ritorikadan əl çəkmir. Hərbi cinayətkar Robert Köçəryan "müharibənin bitməsi hələ konfliktin bitməsi demək deyil, ədalətli sülh olmasa yenə müharibə ola bilər", - deyə bildirib. Cinayətkar erməni Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisini danışıqlar yolu ilə bərpa edilməsini, Şuşa və Hadrutun qaytarılmasından danışıb. Ermənilərin sərhəd qoşunlarımıza atəş açması halları da mövcuddur. Baş verənlərin fonunda Qarabağdakı hərbi durumu necə dəyərləndirmək olar, vəziyyət nədir?***

- Hazırda bölgədə vəziyyət sabitdir. Üçtərəfli bəyanatda göstərildiyi kimi, tərəflər sənədləri yerinə yetirməkdədir və o bəyanatdan kənara çıxan heç bir hadisə yoxdur. Yəni Azərbaycan respublikası, Azərbaycanın Şanlı Ordusu qələbə qazanaraq, hazırda Ermənistanla sərhədlərin dəqiqləşdirilməsini aparır. Azərbaycan sərhədçiləri Ermənistanla bərpa olunmuş sərhəddə xidmət aparırlar. Yəni artıq Azərbaycanda təmas xətti yoxdur, cəbhə bölgəsi yoxdur. Azərbaycanın digər ölkələrlə olduğu kimi Ermənistanla da dövlət sərhədi var. Sadəcə, digər ölkələrdən fərqli olaraq erməni dövləti və orda müxalifətdə olan siyasi qüvvələr müəyyən çıxışları ilə İrəvanın mövqeyini bildirirlər. Belə bir formada onlar müəyyən şəkildə üstünlük qazanmaq istəyirlər. Elə düşünürlər ki, qazanacaqlar. Hesab edirəm ki, artıq Ermənistan xalqı bütün bunlardan yorulub. Onlar 30 il torpaqlarımızı işğalda saxlamağın nəticəsini gördülər. Ümid edirəm, bütün iqtisadi proseslərdən kənarda qalan və sosial problemlərdən boğulan xalq düzgün yolu seçə biləcək.

Qisasçı ideyalardan çıxış edən siyasətçilər demək olar ki, artıq cənab Prezident İlham Əliyev dediyi kimi fəaliyyətləri ilə özlərini zibilliyə atırlar. Bir atalar sözü var; it hürər , karvan keçər. Bu ifadə nə qədər kobud olsa da, deməliyəm ki, o itlər hürəcək, bizim karvanımız isə gedəcək. Biz bütün dövlətlərlə sülh şəraitində yaşamağa, qonşularla normal qonşuluq münasibətlərdə olmağa davam edəcəyik. Əgər kimsə bizim torpaqlara göz dikərsə, Dəmir Yumruğu işə salmağa hazırıq. Ermənilərin də Azərbaycanın daxilində yaşamağını, son durumları nəzərə alaraq onları da yavaş-yavaş sülhə doğru yönəltməliyik. O insanlar cənab Prezidentin də dediyi kimi, istəsələr, Azərbaycan vətəndaşlığını qəbul edib burada qalacaqar və qanunlarımıza hörmət edəcəklər. Etməsələr, rədd olub çıxıb gedəcəklər. Ermənilər qələbədən sonra bizə hansı niyyət və hansı fikirlərlə yanaşacaqlarsa, elə də cavab alacaqlar.

Bu gün Azərbaycan Ordusu yetərli qədər güclüdür, Azərbaycanın düşməni əzilib, digər ölkələrlə çox yaxşı münasibətlərimiz var. Köçəryanlar və digər revanşist ideyalarla yaşayanlar sadəcə özlərini gündəmdə saxlamaq üçün populist çıxışlar edirlər. İndi bilirik ki, bu saat Ermənistanda seçkiqabağı proses gedir, orda dövlət nəzarəti yox şəklindədir. Ona görə də mən o çıxışlara o qədər də fikir verməzdim. Ola bilsin, belə çıxışlar etməyə səsləri var, amma bunları həyata keçirməyə gücü yoxdur.

***- Azərbaycan Ordusu tərəfindən darmadağın edilən, faktiki olaraq diz çökdürülən ermənilər qisasçı çıxışlar edərkən cəsarəti haradan alırlar?***

- Ermənistanda hakimiyyətə kim gəlirsə-gəlsin, onlar xarici qüvvələrin əlində bir alət kimi fəaliyyət göstərirlər. İndi də revanşist çıxış edənlər müəyyən yerli və xarici qüvvələrin niyyətlərini səsləndirirlər. Bunu nəzərdən qaçıqmaq lazım deyil. O da məlumdur ki, əgər onlar bir şey bacarsaydılar, bunu 44 günlük müharibədə edə bilərdilər. Bu revanşist xarici qüvvələr elə müharibəyə qədər də var idilər. Əgər bu qüvvələr o vaxt Azərbaycanın qələbəsinin qarşısını ala bilməyiblərsə, Azərbaycan öz qəhrəman ordusunun şücaəti nəticəsində zəfər qazanıbsa, inanmıram ki, düşmən bundan sonra nəyəsə nail ola bilsin. Belə təxribatçı çıxışlar sülh sazişi əldə edilməyənə qədər Ermənistanda olacaq. Azərbayacanın Ali Baş Komandanı da bəyan edib ki, biz ordumuzu daim gücləndirəcəyik, inkişaf elətdirəcəyik. Bu yaxınlarda Türkiyənin Hərbi Sənaye Kompleksinin rəhbərliyi Azərbaycana gəlib və Müdafiə Nazirliyi ilə birgə müəyyən layihələrə imza atılıb. Cənab Prezident demişkən, Dəmir Yumruğu həmişə işə salmağa hazırıq və həmin revanşist ideyaları həyata keçirməyə çalışmaq istəyənləri darmadağın etməyə iradəmiz, gücümüz ordumuz var.

***- Ermənilərin Zəngilan sərhədində törətdiyi hərbi təxribat məlumdur. Prezident İlham Əliyev Zəngilanda istifadəyə verilən hərbi hissədə çıxışında bu təxribatın cavabını verdi. Dedi ki, əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Sizcə erməni təxribatçıları bu çıxışdan hansısa dərs götürdülər?***

- Cənab Prezident indiyə kimi nə deyibsə hamısını yerinə yetirib. O, müharibəyə qədər də son xəbərdarlığını etmişdi. Azərbaycan Ordusu son təxribat nəticəsində əks-hücum əməliyyatı keçirərək, torpaqlarını işğaldan azad etdi. Biz bu tarixi dərsi artıq vermişik və lazım olsa belə dərsləri hələ bundan sonra da verə biləcəyik. Azərbaycan Ordusu, artıq düşmənə nəyə qadir olduğunu göstərdi. Ermənilər bunu heç vaxt unutmayacaq. O ki qaldı Zəngilan istiqamətində ermənilərin törətdiyi hərbi təxribata, bu yaxınlarda yenə silahsız şəkildə insident törətmişdilər. Bu cəhdləri də heç bir nəticə vermədi. Prezident son xəbərdarlığı elə-belə vermir. Əgər son xəbərdarlığı verirsə, bu artıq o deməkdir ki, növbəti təxribatçı addımlar onların faciəsi ilə nəticələnəcək.

***- Azərbaycan sərhədlərinin təhlükəsizliyinin təminatı üçün bu gün Ermənistanla sərhəddə təkcə sərhəd xidməti qoşunlarının dayanması kifayət edirmi?***

- Hazırda Müdafiə Nazirliyinin hərbi hissələri sərhəd xidməti qoşunları ilə bərabər Azərbaycan sərhəddini qoruyurlar. Əsas odur ki, Azərbaycan Dövlətinin sərhədi qorunur və tam şəkildə nəzarət olunur. Düşünürəm ki, bu istiqamətdə proses gedir. Əlbəttə ki, gələcəkdə Ermənistanla sərhəddə təkcə sərhəd xidməti qoşunlarının bölmələri yerləşəcək və xidmət aparacaq. Azərbaycan Ordusunun Müdafiə Nazirliyinə aid olan hissələri isə öz döyüş hazırlığı ilə təyinatı üzrə məşğul olacaqlar. Buna bir qədər zaman lazımdır.

Bilirsiniz ki, bizim orada xidmət edən sərhəd xidmətçilərimiz kifayət qəqər peşəkardırlar. Onlar özlərini bu müharibədə göstərdilər. Hesab edirəm ki, digər ölkələrlə olan sərhədlərdəki kimi Azərbaycanın sərhəd xidmətinin bölmələri Ermənistanla sərhəddə də öz işini layiqincə yerinə yetirərək Azərbaycanın sərhəd təhlükəsizliyini qoruyacaqlar.

***- Şair müəllim, Laçın sərhədində ermənilərə dəhliz verilib və oradan da Qarabağa gediş-gəliş var. Digər tərəfdən, sülhməramlı dəstələrin özbaşına davranışları ilə paralel, Azərbaycan qoşunlarının nəzarət etmədiyi ərazilərində erməni separatçıların, silahlıların mövcudluğu hərbi təxribatlar üçün bir qığılcımdır. Məsələyə bu fonda baxanda Qarabağ regionunda hərbi vəziyyət Azərbaycan tərəfi üçün nə dərəcədə qaneedicidir?***

- Azərbaycan tərəfi regionda öz öhtəsinə düşənləri yerinə yetirir. Düzdür, sülhməramlı qüvvələr Azərbaycanda bəzi xoşagəlməz addımlar atırlar ki, bu da icraçılar səviyyəsindədir. Biz bilməliyik ki, həmin icraçılar sülhməramlıların aşağı zümrədə olan nümayəndələrdir. Onların daim ermənilərin içində olduğu üçün ermənilərin təsiri altına düşmələri istisna olunmur. Baş verən hadisələri biz görürük, bütün bunlar nəzarət altındadır. Türkiyə Monitoriq Qrupu orada prosesə nəzarət edir. Azərbaycanın da nəzarət eləməyə böyük inkanları var. Hansısa xoşagəlmnəyən və Azərbaycanın maraqlarına uyğun gəlməyən məsələlər sülhməralı qüvvələrin rəhbərliyi ilə müzakirə olunur. Nöqsanlar ola bilər, amma Azərbaycanın təlükəsizliyinə, suverenliyinə, maraqlarına zidd olan bəyanatdan kənara çıxan hərəkətlər hələ ki, yoxdur. Ona görə də xırda nöqsanların aradan qaldırılmasına zaman lazımdır. Azərbaycan ölkə daxilində gedən bütün məsələləri nəzarətdə saxlayacaq. Görüləcək işlər həddən çoxdur. Prinsipcə, Azərbaycanı bölgədəki bugünkü vəziyyət qane edir. Nəhayət Azərbaycan dövləti bütün ərazilərinə tam nəzarəti əlinə alacaq.

***- Ölkə başçısının Zəngəzur dəhlizi ilə bağlı çıxışları Ermənistanı niyə narahat edir, əslində burada hədəf nədir? Bu, Azərbaycanı istəməyənlərə hansı mesajdır?***

- Cənab Prezident Zəngəzur məsələsini həm daxili auditoriya, həm də beynəlxalq aləm üçün çox gözəl şəkildə açıqladı. Azərbaycanın gələcəkdə hansı addımlar atacağı, hansı niyyətdə olacağı haqqında bəyanat verdi. Azərbaycan Prezidentinin bu bəyanatları erməni xalqının ürəyindəndir. Prezidentin etdiyi çıxışlar, istiqamətlər birinci növbədə sülhə yönəlib. Bu enerji layihələrinin yerinə yetirilməsi və enerji layihələrindən faydalanaraq Ermənistanın da rifahının yaxşılaşması deməkdir. Müharibəyə qədər olduğu kimi, müharibədən sonra da cənab Prezident ermənilərə sülhə gəlmək üçün yol göstərir. Əgər ağıllı olsalar, düşmənçilik niyyətindən əl çəksələr, güclü qonşu dövlətlərlə, bir tərəfdən Azərbaycan, bir tərəfdən Türkiyə ilə öz inkişaflarını sürətləndirərlər. Hazırda əsas hədəflər sırasında Zəngəzur, Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə təmin edilməsi dayanır və Ali Baş Komandan bunu öz çıxışlarında bəyan edib.

*Əsas hədəflər sırasında Zəngəzur, Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə təmin edilməsi dayanır...*

*Hazırda Müdafiə Nazirliyinin hərbi hissələri sərhəd xidməti qoşunları ilə bərabər Azərbaycan sərhəddini qoruyurlar...*



***Tahirə Qafarlı***

***Son vaxtlar ölkəmizdə sosial şəbəkələr üzərindən təşkil olunan müxtəlif hədiyyə yarışlarının sayı xeyli artıb. Belə yarışlara təşkilatçılığı əsasən tanınmış bloggerlər edir. Yarışa sponsorlar müəyyən vəsait qarşılığında qoşulur, izləyicilər isə şərtlərə əməl edərək qalibin seçilməsini gözləyir. Qaliblər də əsasən canlı yayımda, xüsusi tətbiq vasitəsilə təsadüfi seçilir. Maraqlısı isə ondadır ki, elə sosial şəbəkələr üzərindən etdiyimiz müşahidələrə əsasən insanlar beyə yarışlarda saxtakarlığın olduğunu düşünür. Kimi "Qalibi seçəndə, ancaq öz qohumlarını, tanışlarını seçirlər", - deyir, kimisi də "Hədiyyə söz verib, profildə izləyici sayı artırırlar" şəklində fikirlər səsləndirir.***

# Məşhurların sosial şəbəkə yarışları

Xatırladaq ki, Əməkdar artist Aybəniz Haşımovanın blogger qızı Aynişan Quliyevanın 1,2 milyonluq "İnstagram" səhifəsində keçirdiyi "giveaway" ətrafında yaşanmış qalmaqal narazılıqları bir qədər də qabardıb. Həmin hadisədə, iddiaya görə, oyunda yer alan istifadəçilərin seçimində şəffaflıq pozulub. Bəs görəsən, sosial mediada keçirilən "giveaway"lar nə qədər şəffafdır? İnsanların belə yarışlara inamı hansı səviyyədədir? Bloggerlər qazandıqları vəsaitdən vergi ödəyirmi? Hafta.az-ın əməkdaşı mütəxəssislərlə mövzunun müzakirəsini apardı.

Instagram



## Saxtakarlıq, yoxsa...?

**■ İlk olaraq, informasiya texnologiyaları üzrə ekspert Vahid Qasımov söylədi ki, əksər hallarda sosial şəbəkələr, xüsusən də "İstagram" üzərində təşkil olunan yarışlarda vətəndaşlar aldadılır:**

"Yarış zamanı qalib seçilən mərhələdə işi icra edən tətbiqə müdaxilə etmək mümkündür. Yəni sadə dillə desəm, ekranda bizə istənilən şəxsi qalib olaraq təqdim edə bilərlər. Təbii ki, bu vaxt arxada tamam başqa proses getmiş olur. Mən deməzdim ki, bütün bloggerlər eyni üsulla və saxtakarlıqla yarış təşkil edir. Əksər hallarda belə neqativ mənzərə yaşanmış olur".

Hə, deməli, belə hallar həqiqətən də yaşanırmış. Bəs görəsən, yarışa qatılmış vətəndaş özü aldadıldığını hiss edə bilər? Belə halların qarşısını almaq və aldanmamaq üçün nə etməli? Ekspertin sualımıza cavabı maraqlı oldu:

"Aldanmaq istəmirsinizsə belə yarışlara qoşulmayın. Çox zaman vətəndaş özü də aldadıldığını hiss etmir. Ona görə də yaxşı olardı ki, yalançı vədlər verən belə yarışlara çox da inanmasınlar".

Daha sonra isə hüquqşunas Emil Aslanov məsələyə münasibət bildirərkən bir məqamı xüsusi vurğuladı. Bu da hazırda sosial şəbəkələr üzərindən edilən dələduzluq halları ilə bağlıdır:

"Sosial şəbəkələr üzərindən təşkil edilən yarışlarda pul ödənişi edən vətəndaş aldadılarsa bu, dələduzluq hesab olunur. Mənimsənilən vəsait 500 manatdan azdırsa bu, xırda talama sayılır. Çox olduğu halda isə dələduzluq tərkiblərə - əmlak və digər maddi nemətlərin əldə edilməsinə ayrılır. Pul özü də əmlak hesab olunur. Fikimcə, keçirilən yarışlarda aldadılan vətəndaş hüquq-mühafizə orqanlarına müraciət edərək haqqını qorumalıdır".

Vergi məsələsinə gəldikdə isə hüquqşunas bu istiqamətdə suallarımızı Dövlət Vergi Xidmətinə yönəltməyimizi tövsiyə etdi. Təəssüflər olsun ki, qurumdan suallarımıza cavab ala bilmədik.

**■ Məşhur bloggerlər Sərraf Kərimov və Ülvi Əliyevin menecerliyini edən Fərid Əhmədov söylədi ki, hər iki blogger sosial şəbəkələrdə reklam fəaliyyəti ilə məşğul olsalar da, bu iş üçün vergi ödəmirlər:**




"Bizim əməkdaşlıq etdiyimiz səhifələrdə reklamı olunan xidmətlər özləri yəqin ki vergi ödəyirlər. Biz şirkətlərlə işləyən zaman onlarla müqavilə bağlayırıq. Bizə pul ödəndikdə isə heç bir vergi tutulmur".

Yeri gəlmişkən, bir məqamı diqqətinizə çatdıraq ki, sosial şəbəkənin qazanc məqsədilə istifadə olunduğu və əsas məqsədin bir qədər arxa plana keçdiyi bu günlərdə "İnstagram" maraqlı addım atdı.

Belə ki, bu sosial şəbəkə üzərindən müxtəlif formalarda gəlir əldə etməyin qarşısını almaq üçün aprel ayından etibarən platformada bəyənmə sayını gizli edib. Ekspertlər hesab edir ki, məhz bəyənmə funksiyasının gizlədilməsi sayəsində insanlar sadəcə paylaşımları haqda fikirləşəcəklər. Dünəndən etibarən ölkəmizdə də test rejimində bu sistemə keçilib və paylaşım edən şəxs istisna olmaqla, digərləri bəyənmə sayını görə bilmir.

***Banu***

## Proqnoz...




**Hazırda, təxminən, 2,2 trln. ABŞ dolları dəyərində olan islam maliyyə sektorunun (islam maliyyələşdirməsi sektoru) 2021-2022-ci illərdə 10-12% böyüməsi proqnozlaşdırılır. Bu proqnoz "S&P Global Ratings" ("S&P") beynəlxalq reytinq agentliyi tərəfində verilib.**

Qeyd edilir ki, artan islam şərtləri ilə istiqraz buraxılışı və əsas islam maliyyə bazarlarında müşahidə edilən orta səviyyəli iqtisadi canlanma sözügedən böyüməni təmin edəcək. "İslam maliyyə sistemi COVID-19 pandemiyasının zərərli təsirlərinə baxmayaraq, 2020-ci ildə böyüməyə davam edib və sektorun aktivləri ötən il 10,6% artıb (2019-cu ildə 17,3% artmışdı). Bundan əlavə, sektorun iqtisadiyyatın şaxələndirilməsi üzrə planları sürətləndirdiyi üçün ipoteka və biznes kreditlərin artacağı gözlənilən Səudiyyə Ərəbistanından da dəstək alacağı gözlənilir. Şirkətlər və hökumətlər arasında yüksək likvidlik və davamlı maliyyələşdirmə ehtiyacları sayəsində islam istiqrazlarının emissiyası 140-155 mlrd. dollara qədər artacaq.

## Statistika...

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) cari ilin yanvar-mart ayları ərzində büdcə gəlirləri 3 milyard 182,1 milyon manat, büdcə xərcləri isə 2 milyard 519,9 milyon manat təşkil edib.**

Birinci rübdə ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 2 milyard 468,1 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 1 milyard 696,6 milyon manat, bonus ödənişləri 765,9 milyon manat, tranzit gəlirləri 5,6 milyon manat olub. Ötən rüb ərzində fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 714 milyon manata bərabər olub ki, bu da ümumi gəlirlərin 22,44 faizini təşkil edir. Cari ilin yanvar-mart ayları ərzində ARDNF-in 2021-ci il büdcəsinin icrası çərçivəsində 2 milyard 513,7 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə 0,7 milyon manat vəsait yönəldilib. İlin ilk rübündə ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri 5,5 milyon manat olub. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-in büdcədənkənar xərci 2 milyard 27,5 milyon manat təşkil edib.

## Müsahib

# Günahkar axtarsaq, məişət zorakılığının öhdəsindən gələ bilmərik

***Bu** gün ölkəmizdə ən çox müzakirə edilən məsələlər sırasında hər birimizi narahat məqamlar intiharlar, boşanmalar, uşaq və qadın hüquqları, aliment məsələsi və s.dir. Son günlərdə məişət zorakılığı ilə bağlı hadisələrin sayı da artmaqdadır. Demək olar hər gün, ərin qadını öldürülməsi, döyməsi və s. bu tipli xəbərlərlə tanış oluruq. "Həftə içi" qəzetinin budəfəki müsahibi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini Sədaqət Qəhrəmanovadır. Sədaqət xanımla bir çox maraqlı məsələlər ətrafında söhbətləşdik. Buyurun, siz də oxuyun...*


Foto: "HƏFTƏ İÇİ"

**Sədaqət Qəhrəmanova,**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini

***SUAL: Sədaqət xanım, Azərbaycanda məişət zorakılığına məruz qalan qadınlarla bağlı son vəziyyət nə yerdədir? Bu ilın son 3 ayı ərzində nə deyə bilərsiniz? İstər həyat yoldaşı, istər qayınanası tərəfindən məişət zorakılığına məruz qalan qadınlar və onların hüquqlarının müdafiəsi barədə danışardınız...***

**CAVAB:** İnsan hüquqlarını qorumaq üçün Azərbaycanda fəaliyyət göstərən bir sıra institutlar var. Onlardan biri də Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Biz Azərbaycanda dövlətin qadın, ailə, uşaq siyasətini həyata keçirərək, bu istiqamətdə onların hüquqlarını da qorumaq, müxtəlif sənədlərin qəbulu, proqramların icrası istiqamətində fəaliyyət göstərir. Qanun, milli fəaliyyət planı qəbul etməklə məsələ bitmir. Son vaxtlar həm intihar hadisələri, həm ailədə qayınana-gəlin, ər-arvad münasibətləri pozulur. Nə baş verir? Müstəqilliyimizin qurulması yolunda baş verən müharibə, qaçqınlıq və köçkünlük... Bütün bunlar hamısı Azərbaycanda baş verir və biz bunu görürük. İstər sosial-iqtisadi, istər siyasi proseslərdə olan çətinliklərin hamısı ailələrə təsir edir. Bunu ola bilsin görmürük... Məişət zorakılığı o demək deyil ki, kimsə kimisə döydü, öldürdü. Məişət zorakılığının ən çətin məqamı sosial-psixoloji və iqtisadi-mənəvi zorakılıqdır. Fiziki zorakılıq onun kulminasiyasıdır. Bu artıq o həddə gəlib çatmaqdır. Ona görə Dövlət Komitəsi müəyyən sənədlər qəbul edir və biz müvafiq istiqamətdə maarifləndirmə işləri aparırıq. Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi var. Biz kimlərlə işləyirik? Hadisə harada baş verir? Rayonlarda, şəhərlərdə, kəndlərdə, ayrı-ayrı yerlərdə... Bu regionları kim idarə edir? Bütün strukturlar çalışmalıdır. Mətbuat da, QHT-lər də, dövlət qurumları da hamı əl-ələ verib, birgə çalışıb, bu problemin qarsısını almaq əzmini ortaya qoymalıdır. Kim cavabdehdir deyə, günahkar axtarsaq, bu problemin öhdəsindən gələ bilmərik. Ona görə baxın, yerlərdə, kəndlərdə baş verir bu hadisələr. Bu yerlərdə də kənd bələdiyyələri var. Kənd icra nümayəndələri, sahə müvəkkilləri var. Gəlirik, rayona, şəhərə, burada icra hakimiyyətləri var. Ardıcıl olaraq icra hakiminin müavinləri məişət zorakılığı ilə bağlı monitorinq qruplarının rəhbərləridir. Onlar gözləməməlidirlər ki, bu gün hadisə baş verdi, məhz onu biz araşdıraq. Belə olmamalıdır. Onlar vaxtaşırı təhlillər aparmalıdırlar. Zəif, risk qrupuna aid olan ailələri müəyyənləşdirməlidirlər. Burada narkomaniya, təhsildən yayınma, işsizlik, ailə ətrafında hansı problemlər baş verirsə, hamısı yerli icra strukturları tərəfindən mütəmadi olaraq, təhlil edilməli, hədəf qrupları seçilməli və onlarla iş aparılmalıdır. Təəssüflər olsun ki, biz hələ bu dərəcəyə gəlib çıxa bilməmişik. Yəni iş sistemli yox, kampaniya xarakterli gedir. Bu gün bu hadisə baş verdi, biz bu hadisə ilə məşğul oluruq. Çox vacibdir ki, həddi-büluğa çatmayanların işləri üzrə komissiyalar məktəbə gələn şagirdin əhval-ruhiyyəsi, dərsə münasibəti, geridə qalması səbəbləri ilə maraqlansın. Bunların hamısı müəllimlərin də diqqət mərkəzində olmalıdır. Onlar maraqlanmalıdırlar ki, bu uşaq əgər yaxşı təhsil alırdısa, bu gün nə baxş verdi və nəyə görə bu, dərsindən geriləd? Yəni cəmiyyət dövlətlə birgə çalışmalıdır, işləməlidir, bu faktları araşdırmalıdır və qarşısını almaqdan ötrü tədbirlər görməlidir.

Baxın, adi saydığımız bir məqamı deyim. Aliment, boşanma prosesləri. Necə baş verir bizdə boşanma prosesləri? Məişət zorakılıqları haradan baş verir? Bizdə boşanma prosesləri ailələrarası, nəsillərarası bir vətəndaş müharibəsinə çevrilir. Yəni normaldır, kimsə kimləsə yola getmirsə, xasiyyətləri uyğun gəlmirsə, boşanma normaldır. Normal boşanma getsin. düşmənçiliyə çevrilməsin. Aliment kəsilirsə, ata uşağa bunu ödəməlidir. Başa düşməlidir ki, bu onun borcudur. Əslində, nə baş verir. Ana uşağı ataya göstərmir.Ata da onun acığına aliment vermir, yəni mədəniyyət - münasibətlərdə mədəniyyət. Heç kimin haqqı yoxdur, uşağı atadan və yaxud anadan məhrum etsin. Bunu valideynlər başa düşməlidirlər. Bu gün məişət zorakılığına məruz qalmış qadına biz sığınacaq axtarırıq. Onun sığınacağı qayınanasının, xalasının, bibisinin, o nəslin-kökün böyüyünün yanındadır. Bu bizim milli dəyərlərimizdir. Bizim insanlar bunu başa düşməlidirlər. Belə çıxır ki, qadın boşananda hər kəs ona qarşı gəlir. Hesab edirlər ki, o, boşanmamalı və zorakılığa dözməli idi. Ona görə problemin həllində dərinliklər və incəliklər var ki, bu istiqamətdə biz işləməliyik.

***SUAL: Bu problemin həlli istiqamətində aidiyyəti qurumlar tərəfindən hansısa işlər görülürmü?***

**CAVAB:** Ötən il Cənab Prezident məişət zorakılığının qarşısının alınması ilə bağlı milli fəaliyyət planını imzaladı və bu gün biz artıq onun üzərində işləyirik. Bu istiqamətdə iki işçi qrupu yaranıb. Milli fəaliyyət planını həyata keçirmək üçün hüquqi bazanın mükəmməlləşməsi ilə bağlı qanunvericiliyə yeni dəyişikliklər edilməlidir. Bu istiqamətdə hüquqşünaslarımız işləyir. İkincisi isə yerlərdə bu sistemin hərəkətə gəlməsi üçün müəyyən tədbirlər həyata keçirilməlidir. Bunla yanaşı, bu il Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi Litva ilə birgə tvininq layihəsi həyata keçirir. Məqsəd məişət zorakılığının qarşısının alınması ilə bağlı onların təcrübəsini öyrənmək, Azərbaycanda tətbiq imkanlarını araşdırmaqdır. Tvininq layihəsi çərçivəsində bu problemin qarşısının alınmasında hansı boşluqlar var, hansı işlər görülməlidir, araşdırılır və müvafiq tədbirlər həyata keçirilir. Biz hazırda məişət zorakılığı ilə bağlı xüsusi trenerlərin hazırlanmasını həyata keçiririk. Tutaq ki, məhkəmə sistemində ayrı, daxili işlər orqanlarında ayrı trenerlərin hazırlanması. İcra hakimiyyətləri, monitorinq qruplarının rəhbərləri ilə ayrı treninqlər keçiririk. Bunlar öz vəzifələrini necə yerinə yetirməlidir və məişət zorakılığının qarşısını almaqdan ötrü onların hüquq və vəzifələri nədən ibarətdir? Bunlar necə işləməlidirlər? Bu istiqamətdə seminarlar aparılacaq. Hər bir qrupda trenerlər hazırlanacaq.

Vacib bir məqamı da qeyd etmək istəyirəm - yerlərdə bələdiyyələrin fəaliyyəti. Bu gün bələdiyyələr yol, su çəkməklə məşğul olmalı deyillər. Məsələni belə qoyuruq: sizə bələdiyyəyə seçilməyiniz üçün səs verən insanlar və onların ailə üzvləri var. Bələdiyyələr ərazilərində olan insanların ailələrində nə baş verdiyini bilməlidir. Bələdiyyələr onların yanında olmalıdır. Belə düşündük ki, bələdiyyələrdə də gender komissiyaları yaransın. Bu komissiyalar məhz bu problemlərlə məşğul olsun. İstər qadın, istərsə də uşaq hüquqlarının qorunması istiqamətində və dövlətimizin qəbul etdiyi qanun, sərəncamlar, milli fəaliyyət planları, dövlət proqramlarıın həyata keçirlməsi istiqamətində onlar da yerlərdə, kəndlərdə müəyyən tədbirlər görsünlər və müəyyən təkliflər versinlər. Yəni hər kəs öz məkanında bilir ki, problemin həllində hansı düyünlər var və bu tədbir həyata keçirilsə daha yaxşı ola bilər. Ona görə də başda cənab Prezidentimiz olmaqla, bütün dövlət qurumları bu istiqamətdə tədbirlər həyata keçirirlər. Bu elə də çətin problem deyil. Sadəcə, bunu istəmək lazımdır. İnsanların bir-birinə olan mədəni davranışı, məişət zorakılığının qarşısını almaq mədəniyyətdir.

***SUAL: Belə bir təklif vardı ki, çoxuşaqlı ailələr anlayışında dəyişiklik edilsin. Yəni çoxuşaqlı ailədə uşaqların sayı 5 yox, 3 götürülsün. Ümumiyyətlə, çoxuşaqlı ailələr məsələsinə komitənin mövqeyini bilmək istərdik...***

**CAVAB:** Hesab edirəm ki, 3 uşaq çox uşaq deyil. Hər bir ailənin mütləq şəkildə 2 uşağı olmalıdır. Bu o deməkdir ki, hər bir valideyn öz əvəzini cəmiyyətə verir. Əhalinin artımını istəyənlər gərək 2 uşaq da əlavə versin; artım budur. Ona görə də hər bir ailə üçün 4 uşaq mütləqdir. Bunu hər bir azərbaycanlı ailəsi bilməlidir. Çoxuşaqlılıq Azərbaycan xalqının milli xüsusiyyətidir. Ona görə mən istəmirəm bundan geri çəkilsinlər. Çoxuşaqlılıq biz necə istəmişiksə, elə də qalsın - 4 uşaq bir norma olsun. Bu mənim düşüncəm, fikrimdir. Özümün də 4 uşağım var. Prinsipim elə gənclikdən belədir ki, hər bir ailədə 4 uşaq dünyaya gəlməlidir. Bacı olmalıdır, qardaş olmalıdır. Bu, hər bir uşağın arzusudur. Ona görə arzu edərdim ki, hər bir ailə quran cütlüklər məhz bu arzu ilə yaşasınlar. Xalqımıza, Vətənimizə yeni övladlar versinlər və çoxuşaqlı ailələrimiz daha çox olsun. Qaldı onların sosial müdafiəsinə, bu insanların arxasında dövlət durub və düşünürəm ki, belə ailələrin sosial müdafiəsini də təmin edəcək.

***SUAL: Bu gün aliment məsələsi boşanmış qadınların yaralı yeridir. Bununla bağlı hansı tədbirlər görülür? Qanunvericilikdə hansısa dəyişikliklər nəzərdə tutulurmu? Ümumiyyətlə, Aliment Fondunun yaradılması da gündəmdədir...***

**CAVAB:** Yeni sosial inkişaf proqramının həyata keçirilməsi ilə bağlı bütün dövlət qurumları kimi, biz də öz təklifimizi verdik. Bu təkliflərdən biri də aliment məsələsidir. Aliment məsələsini həll etməkdən ötrü dövlət xüsusi qərar qəbul etsə, uşaqları məsuliyyətsiz ataların ümidinə qoymayaraq, aliment fondu yaransa, alimenti dövlət ödəyib, daha sonra onu atadan alarsa, uşağın haqqını-hüququnu qorumaq nöqteyi-nəzərdən belə bir qərar yaxşı olar. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, artıq belə bir təklif hazırlayıb və bu təklifimizə onlar dəstək verib. Yəqin ki, bu məsələ öz həllini tapar.

***SUAL: Cəmiyyəti narahat edən daha bir məsələ də intihar faktlarıdır. Bu kimi faktlar sürətli şəkildə artmaqdadır. Komitə bununla bağlı hansı addımları atır? Səbəblər araşdırılırmı və nələrdir?***

**CAVAB:** Hesab edirəm ki, böyük bir təhlilə ehtiyac var. Son dövrlər bu kimi faktların olması reallıqdır. Bəzi valideynlər deyir ki, övladlarımızı intihara telefonlar sürükləyir. Telefonda hansısa proqramlar var və gənclərin beyninə, şüuruna təsir edir, onları intihara sövq edirlər; yəni bu, deyilənlərdir. Bu, birinci tərəfi. İkinci tərəfi isə bəzi ailələrdə dediyimiz mənəvi-psixoloji zorakılıq hallarının mövcud olması, uşaqlara müəyyən qadağaların qoyulması, hətta bəzən qəti qadağaların tətbiqi, onlara sərbəstliyin verilməməsi bu uşaqları doğrudan da psixoloji nöqteyi-nəzərdən çox çətin vəziyyətə salır. Psixoloji zəif insanlar bu addımı ata bilir. Çox arzu edərdim ki,bu intihar hadisələri, faktları ilə bağlı mətbuatda məlumat verilməsin. Bu, hadisənin təbliğidir. Belə bir halda olan insanın ondan bəhrələnərək, bu addımı atmasına şərait yaranır. Bu məlumatların verilməsi nə əhəmiyyət kəsb edir? Ona görə bu olmasa daha yaxıdır. Bununla yanaşı, maarifləndirmə işləri aparılmalıdır, milli-mənəvi dəyərlərimiz təbliğ olunmalıdır. Bu istiqamətdə ailələrdə çox ciddi iş aparılmalıdır.

***SUAL: Erkən nikgah problemi... Bu gün Azərbaycanda erkən nikahlarla bağlı vəziyyət nə yerdədir? Ən çox bu tendensiya hansı bölgələrdə müşahidə edilir?***

**CAVAB:** Bu gün deməzdim ki, erkən nikah halı çox böyük vüsət alıb. Bu sahədə vaxtilə cənub bölgəsinin adı hallanırdı. Sonra biz komitə olaraq, təhlillər apardıq və gördük ki, aran zonasında belə hadisələr daha çoxdur. Sabirabad, Saatlı zonasında belə hallar çox oldu. Bu nədən baş verirdi? Vaxtilə Rusiyaya çörək dalınca işləmək üçün gedən gəncləri evləndirməkdən ötrü anaları onları bu cür nikaha sövq edirdi. Gəncyaşlı qızlarla onları qeyri-rəsmi nikahda evləndirirdilər. Bu gün dövlətçilik siyasəti və hər bir qurumun apardığı siyasət nəticəsində nə baş verir? Hansısa bir kənddə belə hal olursa, ya sinif yoldaşı, ya qonşusu, ya rəfiqəsi, yəni bir çox rayonlardan komitəyə zənglər olur. İcra Hakimiyyətinin özünə zənglər olur ki, belə hal var və bunun qarşısının alınmasında bizə kömək edin. Bu da o deməkdir ki, əgər əvvəllər hər kəs gedib qol qaldırıb, 15 yaşında qızın toyunda rəqs edirdisə, indi bununla bağlı zənglər gəlir.

***SUAL: Pandemiya dövründə nikaha daxil olanların sayında azalma müşahidə edilir. Bu da təbii ki, ailə institutuna müəyyən qədər təsir göstərir. Nikaha daxil olanların sayının azalması ilə bağlı dövlətə hansısa təkliflər verilibmi?***

**CAVAB:** Bu, müvəqqəti bir prosesdir. Yəqin ki, pandemiya bitən kimi toyların sayı artacaq. Nikahların azalması keçici bir müddətdə baş verir və bu gün əgər nikahlar varsa, bu özü də böyük məsələdir. Bu da o deməkdir ki, belə şəraitdə hələ də nikaha gedənlər var. Böyük, təmtəraqlı toylardan çəkinib, balaca məclis edib, öz izdivaclarını həyata keçirirlər və ailələrini qururlar. Bəlkə də bu, ona görə belə alındı ki, insanlar böyük, təmtəraqlı toylardan uzaqlaşsınlar. Övladlarını evləndirməkdən ötrü ən əziz, ən yaxın adamlarının əhatəsində onlara xoşbəxtlik arzu etsinlər. Vacib olanı gəinclərimizin xoşbəxtliyidir və bu hal keçicidir. Pandemiya dövründə olan bu problem müvəqqətidir.

> *Ana uşağı ataya göstərmir. Ata da onun acığına aliment vermir, yəni mədəniyyət - münasibətlərdə mədəniyyət...*

> *Bələdiyyələr ərazilərində olan insanların ailələrində nə baş verdiyini bilməlidir, onların yanında olmalıdır...*

> *Vaxtilə Rusiyaya çörək dalınca işləmək üçün gedən gəncləri evləndirməkdən ötrü anaları onları bu cür nikaha sövq edirdi...*

***Tünzalə İsmayılova***



**■ Bakıda tarixi binanın üzərində olan tikilinin söküntü işləri yaxın günlərdə yekunlaşacaq. Bu barədə hafta.az-a Bakı şəhər İcra Hakimiyyətindən bildiriblər. Qeyd olunub ki, hazırda söküntü işləri davam edir:**

"Bakının Nəsimi rayonu 28 May küçəsində yerləşən tarixi binanın üzərindəki əlavənin sökütü işləri davam edir. Ötən gün havanın küləkli olması işləri yubatsa da, hazırda əməkdaşlar həmin ərazidədirlər. Yaxın günlərdə bütün işlərə yekun vurulacaq". Qurumdan əlavə olunub ki, baş vermiş hadisəni araşdırmaq üçün artıq komissiya yaradılıb. Xatırladaq ki, tarixi bina 1908-ci ildə inşa edilib və Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxildir.




**■ Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə "Xarıbülbül" (Kharibulbul) musiqi albomu ictimaiyyətə təqdim olunub.**

Fonddan hafta.az-a bildirilib ki, layihənin rəhbəri Parisdə yaşayan həmyerlimiz, Beynəlxalq müsabiqələr laureatı, pianoçu-bəstəkar Etibar Əsədlidir. Layihənin musiqi redaktoru Sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətovdur. Layihə Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin şanlı qələbəsinə həsr olunub. Layihənin adı ilə Vətən müharibəsinin simvoluna çevrilmiş Xarıbülbülün adının eynilik təşkil etməsi heç də təsadüfi deyil. Belə ki, bu qələbədə Ali Baş Komandanın ətrafında sıx birləşən dünyanın dörd bir yanında yaşayan həmvətənlərimizin birliyi və bərabərliyi bu layihədə də öz əksini tapıb.



**■ 2020-ci ildə birinci instansiya məhkəmələrində inzibati xətalara dair 74,0 min işə baxılıb ki, bu da 2019-cu ilin göstəricisindən 16,8 faiz çoxdur.**

Həmin işlərin 36,7 faizi idarəçilik qaydaları, 28,3 faizi ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat, 5,2 faizi yol hərəkəti qaydaları, 3,5 faizi sağlamlıq, 3,3 faizi mülkiyyət, 0,7 faizi gömrük qaydaları, 0,5 faizi iqtisadi fəaliyyət qaydaları əleyhinə olan, 2,7 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar, qalanları isə digər inzibati xətalarla bağlı olub. 2020-ci ildə baxılmış işlərin 74,0 faizi üzrə inzibati məsuliyyət tədbiri tətbiq edilib, 18,4 faizinin icraatına xitam verilib, 6,6 faizi üzrə inzibati xəta törətmiş şəxslərə dair materiallar əlavə yoxlanış üçün qaytarılıb, 1,0 faizi üzrə isə materiallar aidiyyəti üzrə göndərilib.



**■ İran ilə ABŞ arasında məhkumların dəyişdirilməsi haqqında mətbuatda yayılan xəbərlər həqiqəti əks etdirmir. Bunu İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xətibzadə Tehranda keçirdiyi mətbuat konfransında bildirib.**

O vurğulayıb ki, rəsmi Tehran bu barədə təkliflər irəli sürüb və plan təqdim edib. Lakin təflik hələ ki, cavabsız qalıb. Məhkumların qarşılıqlı dəyişdiirilməsi barədə heç bir razılaşma əldə olunmayıb. S. Xətibzadə ABŞ-ın İrana məxsus 7 milyard dollar vəsaiti sanksiyalardan azad etmək istəyinə də toxunub. Diqqətə çatdırılıb ki, İran öz vəsaitinin sanksiyalardan hissə-hissə deyil, birdəfəlik azad edilməsini və ölkəyə qaytarılmasını tələb edir.



**■ Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 2 qazimiz sağalaraq Vətənə geri dönüb.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən hafta.az-a verilən məlumata görə, qazilərimiz Həmidov Kamran Qəribxan oğlunun və Quliyev Elnur İbadət oğlunun Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də Fond tərəfindən təmin edilib. "YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 65 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.



**■ Futbol üzrə Avropa çempionatının kuboku Bakıya gətiriləcək. Hafta.az bu barədə UEFA-nın saytına istinadən məlumat verir. Qeyd olunur ki, kubok yarışların keçiriləcəyi şəhərlər üzrə tur çərçivəsində mayın 7-8-də Bakıda nümayiş etdiriləcək.**

Kubok daha sonra Bakıdan Kopenhagenə yola düşəcək. Qeyd edək ki, Avro-2020 çərçivəsində Bakıda qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir matçı keçiriləcək. Yarımfinal və final matçları Londonda baş tutacaq. Avropa çempionatı iyunun 11-dən iyulun 11-dək Avropanın 11 şəhərində keçiriləcək.

# Bərdədə ermənilərin anasız qoyduğu körpənin taleyi...

## Sosial

***Müharibənin ən məsum qurbanları hələ nəyin nə olduğunu bilməyən balaca fidanlar - uşaqlar olur hər zaman. Top-tüfəng səsləri, savaşın xaosu ilə yıxılan isə evlərin nəhəng beton divarları deyil tək, körpələrin gələcəyidir həm də. Axı bircə gülüşləri ilə dünyanın ritmini dəyişə bilirdi onlar? Dəyişərdi bəlkə də, düşmən erməni olmasaydı. Davası səngərdəki əsgərlə deyil, qundaqdakı körpə ilə olan mənfur "qonşularımız" hələ 17 günlük ikən müharibə dəhşətini hiss etdirdi balaca Gülçinə. Anası Tükəzban isə düz 5 il gözləmişdi körpəsinin yolunu. Nə doyunca sevə, nə də qoxusunu içinə çəkə bildi övladının. Ötən ilin oktyabr ayında, Ermənistan silahlı qüvvələrinin Bərdədə törətdiyi terror 20 günlük körpədən anası Tükəzban Mirzəliyevanı və babası Çərkəz Mirzəliyevi aldı. Hafta.az-ın əməkdaşı terror qurbanı olmuş 25 yaşlı gənc ana Tükəzban Mirzəliyevanın əmisi Feyruz Mirzəliyev ilə söhbət apardı. Ailənin hazırki vəziyyəti, balacanın durumu ilə tanış oldu.***





Körpəyə ortaqlı baxırıq. Aparıram 10-15 gün bir nənəsigildə qalır, digər günlər o biri nənəsinin yanında...

***- Feyruz bəy, Allah yaxınlarınıza rəhmət etsin, sizlərə səbir versin.***

- Çox sağ olun, Allah bütün ölənlərə rəhmət etsin.

***- Bildiyimiz kimi Gülçinin atası cəbhədə düşmənə qarşı döyüşən hərbçilərimizdən idi.***

- Hə, elə indi də xidmətini davam etdirir. MAXE hərbiçidir.

***- Bəs körpəyə kim baxır?***

- Körpəyə ortaqlı baxırıq. Aparıram 10-15 gün bir nənəsigildə qalır, digər günlər o biri nənəsinin yanında. Balacanın qəyyumluğu isə atasındadır, ancaq hər iki ailə uşağa ortaqlı baxır.

***- Balaca Gülçin necədir? Səhv etmirəmsə, 7 aylıq olmalıdır.***

- Şükür Allaha, vəziyyəti yaxşıdır. İndi 6 ayını tamam edib, 7-nin içindədir.

***- Terrorun qurbanı olan Tükəzban xanıma "şəhid" statusu verilib?***

- Bəli.

***- Dövlət tərəfindən ailəyə hansı dəstək olunur?***

- Tam dəqiqliyi ilə hansı köməkliyin göstərildiyini bilmirəm, bir onu deyə bilərəm ki, dövlət tərəfindən balacaya aylıq müavinat ayrılıb.

***- Ailənin bir problemi, narahatçılığı varmı, deyin işıqlandıraq.***

- Nə deyim, Vallah, indi problemsiz ailə yoxdur. İtkilərimiz ağırdır...

***- Allah sizlərə səbri, körpə Gülçini böyüdüb boya-başa çatdırmaq üçün ailənizə cansağlığı versin.***

- Çox sağ olun.

Qeyd edək ki, 25 yaşlı Tükəzban hadisə baş verən gün atası Çərkəz Mirzəliyevlə Bərdə rayon xəstəxanasına həkim müayinəsinə gedərkən ermənilərin raket hücumunun hədəfi olub. Hadisə yerində həyatını itirən Tükəzbanla atası Çələbilər kəndində yanaşı dəfn olunublar. Həmin gün - 28 oktyabr 2020-ci il tarixində Ermənistanın Bərdəyə raket hücumu nəticəsində 21 dinc sakin həlak olub, 70 nəfər yaralanıb. Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə, xüsusilə külli miqdarda ziyan dəyib.

✍ ***Banu***

# Alimpaşa Məmmədovun marallarının taleyi

***Bir müddət öncə korrupsiya əməllərinə görə həbs olunan Şəmkir rayonunun keçmiş icra başçısı Alimpaşa Məmmədovun şəxsi maral təsərrüfatı ortaya çıxıb. Sabiq icra başçısı Şəmkir rayonunun Kür qəsəbəsində, əvvəllər sayı bir qədər çox, hazırda isə 30-dan artıq maralın olduğu fermanı yaradıb.***



Məlum hadisələrin ardından A.Məmmədovun özəlləşdirdiyi müəssisələr kimi bura da müsadirə edilib. Bəs görəsən hazırda həmin marallara hansı qurum nəzarət edir? Prosesin növbəti mərhələsində maralların taleyi necə olacaq.

■ **Hafta.az-ın əməkdaşı məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əlaqə saxladı. Qurumun mətbuat katibi İradə İbrahimova saytımıza danışarkən söylədi ki, nazirliyə məsələ ilə bağlı heç bir məlumat daxil olmayıb:** "Maralların aqibəti necə olacaq, bu barədə heç nə bilmirəm. Məsələ bizə aid deyil".

> *Maralların başqa iqlimə xas olduğunu nəzərə alsaq, onların təbiətə buraxılacağını güman etmirəm*

■ **Ardınca isə ekoloq İslam Mustafayev mövzuya münasibət bildirdi. Onun sözlərinə görə, Zoologiya Parkı o qədər maralı götürə bilməz. Buna görə də hesab edirəm ki, ferma olduğu kimi saxlanılaraq, idarəçilik Ekologiya və Təbii Sərvətlər Nazirliyinə verilər:**

"Maralların başqa iqlimə xas olduğunu nəzərə alsaq, onların təbiətə buraxılacağını güman etmirəm. Xallı maral olsaydı, Göygöldən gətirilmiş olardılar, oradan gətirilibsə bizim təbiətə uyğundur. Şimaldan gətirilmiş maralların təbiətimizə buraxılması istisnadır". Qeyd edək ki, hüquq-mühafizə orqanlarının 26 aprel 2021 tarixində keçirdiyi əməliyyat zamanı rayon İcra hakimiyyətinin bəzi vəzifəli şəxsləri, həmçinin icra başçısı Alimpaşa Məmmədov saxlanılıb. Ardınca isə Səbail Rayon Məhkəməsində Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədov barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının təqdimatına baxılıb. Prosesdə A.Məmmədov barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

✍ ***Banu***

# Eldar Həsənovun həbs müddəti daha 3 ay uzadıldı



**Bu gün Binəqədi Rayon Məhkəməsində Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı sabiq səfiri, hazırda həbsdə olan Eldar Həsənov barəsində seçilən həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanının verdiyi vəsatətə baxılıb. Hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə təqdimat təmin edilib, Eldar Həsənovun barəsində olan həbs-qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.**

Xatırladaq ki, Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol vermələri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə Xarici İşlər Nazirliyinin İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Molla-zadə, Konsulluq idarəsinin rəisi Faiq Bağırov və digərləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma faktlarına görə cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmənin qərarları əsasında həbs qətimkan tədbiri seçilib.

Davam edən cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri zamanı Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan dövlət büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı yeni məlumatlar əldə edilib, toplanılmış materiallar əsasında müvafiq qərarla kompleks maliyyə-təsərrüfat fəaliyyəti üzrə yoxlama təyin edilib.

Maliyyə yoxlamaları zamanı Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Hersoqovinadakı səfiri Həsənov Eldar Hümbət oğlu tərəfindən xeyli miqdarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsi və digər qanun pozuntularının törədilməsinə dair əsaslı şübhələr müəyyən edilib. Aparılan istintaq çərçivəsində Eldar Həsənov şübhəli şəxs qismində tutulub.

Səbail rayon Məhkəməsinin qərarı ilə onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Daha sonra onun barəsində aparılan cinayət işinin istintaqı DTX-dan alınaraq Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinə həvalə edilib.

# "Azercell" ilk Onlayn Qadın Festivalının rəqəmsal tərəfdaşıdır

**Mayın 6-8-də Azərbaycanda ilk dəfə olaraq "Azercell Telekom" MMC-nin rəqəmsal tərəfdaşlığı ilə Onlayn Qadın Festivalı baş tutacaq. Qadınların müxtəlif sahələr üzrə maariflənməsinə imkan yaradacaq toplantı http://qadinfest.az/ platforması üzərindən həyata keçiriləcək.**




İlk Onlayn Qadın Festivalında xanımları maraqlandıracaq çoxşaxəli mövzular müzakirəyə çıxarılacaq. Üç gün ərzində onlayn platforma üzərindən karyera, təhsil, sağlamlıq, gözəllik, psixologiya, uşaqlarla davranış və s. kimi mövzular barədə tanınmış peşəkar mütəxəssislərin canlı çıxışı baş tutacaq. Eyni zamanda, yoqa, fitness, pilates, rəsm, mətbəx və s. sahələrində master-klasslar təşkil olunacaq. Yerli və beynəlxalq spikerlərin çıxış edəcəyi festivalda özünü inkişaf, qadınların hüquqlarının qorunması, sosial və digər məsələlər də gündəmdə olacaq. Festivalın hər günü isə tanınmış və sevilən ifaçıların çıxışı ilə başa çatacaq. "Azercell" bu maraqlı festival zamanı canlı yayımların keyfiyyətli və sürətli internet vasitəsilə ötürülməsinə nəzarət edəcək. Festival boyunca http://qadinfest.az/ saytının ana səhifəsinə Azercell-in brendi ilə onlayn köşk yerləşdiriləcək və buradan birbaşa mobil operatorun saytına keçid etmək mümkün olacaq. Festivalın ən maraqlı məqamlarından biri də sual-cavab sessiyasının keçirilməsidir. Belə ki, tədbir zamanı təşkil olunacaq viktorinada sualların hamısına düzgün cavab verən iştirakçılara müxtəlif qiymətli hədiyyələr təqdim olunacaq.

Festivalın rəqəmsal tərəfdaşı olan "Azercell Telekom" MMC də öz tərəfindən viktorina qaliblərindən birinə iPhone SE smartfonunu hədiyyə edəcək. İlk onlayn qadın festivalına qoşulmaq üçün http://qadinfest.az/ saytında qeydiyyatdan keçmək lazımdır. Tədbirlə əlaqədar xəbərləri festivalın Facebook https://www.facebook.-com/events/19772405153756 və İnstaqramdakı https://www.instagram.com/qadin_fest/ səhifəsindən izləmək olar. Festivalda iştirak ödənişsizdir.



■ **Əvvəlki dövrlərdə hərbi səbəblərlə əlaqədar təyin edilmiş müddətli əlilliklərinin uzadılması üçün barələrində e-sistemə göndəriş daxil edilən, eləcə də əlillik sənədlərindəki diaqnozlarda ziddiyyətlər aşkar olunan 18 şəxs də əyani müayinə əsasında qiymətləndirməyə cəlb olunub.**

Əyani müayinəsi aparılmış 18 nəfərdən 9 nəfərin (50%) xəstəlik diaqnozlarının və sağlamlıq vəziyyətlərinin əlillik təyinatına əsas vermədiyi müəyyən olunub. Bu səbəbdən onlara təkrar əlillik təyin olunmasından imtina qərarı verilib. Əyani müayinələrdə qeyri-hökumət təşkilatları nümayəndələrinin də iştirakı təmin edilir. Bu dəfəki müayinədə Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev iştirak edib.



■ **Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə aylıq məlumatı təqdim edib.**

ANAMA-dan hafta.az-a bildiriblər ki, aprelin 1-dən 30-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 364, tank əleyhinə 148 mina və 1098 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Nəticədə 285 hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib. Məlumata görə, ötən ilin noyabrın 10-dan aprelin 30-dək piyada əleyhinə 7086, tank əleyhinə 3574 mina və 7943 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.



■ **Koronavirus pandemiyasının mənfi təsirləri nəticəsində ötən il İtaliyada demoqrafik vəziyyət məyusedici olub və əhalinin sayı azalıb.**

Doğum hallarının azalması, COVID-19 xəstəliyi ilə əlaqədar ölüm halları və gənclərin emiqrasiyası nəticəsində əhalinin sayı 60 milyon nəfərdən aşağı düşərək 59,25 milyon nəfər olub. Hafta.az xəbər verir ki, İtaliya Statistika İdarəsinin (İstat) məlumatına əsasən, 2020-ci il ərzində ölkə əhalisinin sayı 384 min nəfər azalıb. Ötən il İtaliyanın vahid dövlət şəklində birləşdirildiyi 1861-ci ildən bəri ən aşağı doğum statistikası da qeydə alınıb. Doğum hallarının sayı 2019-cu illə müqayisədə 16 min azalaraq 404104-ə düşüb.



■ **Ermənistan baş prokurorluğu ölkə prezidenti Armen Sarkisyanın ikili vətəndaşlıq faktını gizlətməsi barədə cinayət işi açıb. Bunu Ermənistanın Vəkillər palatasının rəhbəri Ara Zohrabyan deyib.**

O bildirib ki, prokurorluq cinayət işini 53 vəkilin 30 mart tarixli müraciəti əsasında sənədlərin saxtaşdırılması maddəsi ilə açıb. Qeyd olunur ki, Armen Sarkisyan 2003-2012-ci illərdə Böyük Britaniya vətəndaşlığına malik olub. Ermənistan qanunlarına əsasən, ölkə prezidenti seçilməmişdən altı il əvvəl Ermənistan vətəndaşlığı almalıdır. Vəkillər iddia edir ki, A.Sarkisyan 2018-ci ildə 6 il tam başa çatmamış, qanunu pozmaqla prezident seçilib.



■ **Ermənistan parlamentinin deputatları xüsusi iclasda ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün Nazirlər Kabineti rəhbərinin vəzifələrini icra edən Nikol Paşinyanın baş nazir postuna seçilməsinə səs verməyib.**

Nikol Paşinyanın baş nazir postuna seçilməsinin lehinə 1 deputat, əleyhinə 3 deputat səs verib, 75 deputat isə bitərəf qalıb. Beləliklə Paşinyan baş nazir postuna seçilməyib. Bu barədə Ermənistan parlamentinin spikeri Ararat Mirzoyan bildirib. Baş nazirin seçilməsi üzrə yeni iclasın mayın 10-da keçiriləcəyi gözlənilir. Əgər parlament üzvləri yenidən Nikol Paşinyanın seçilməsinin əleyhinə səs versə, qanunverici orqan buraxılacaq, prezident Armen Sarkisyan isə növbədənkənar seçkilərin vaxtını təyin etməli olacaq.



■ **Şuşada "Qırmızı Kitab"a düşəcək bir neçə bitki növü var. Bunu jurnalistlərə açıqlamasında Azərbaycan Milli Elmlər Akademiysının (AMEA) vitse-prezidenti İradə Hüseynova deyib.**

Onun sözlərinə görə, Azərbaycanda "Qırmızı kitab"ın yeni nəşri ilə bağlı redaksiya heyəti formalaşdırılıb. Yeni nəşrlə bağlı iş proqramı da hazırlanıb: "Proqramda əsas məqsəd nadir və itməkdə olan bitki, göbələk və heyvan növlərinin siyahısının dəqiqləşdirilməsi, tərtib olunan siyahıların bir daha nəzərdən keçirilməsinin təmin edilməsidir. Artıq mühafizəyə ehtiyacı olmayan növlərin həmin siyahıdan çıxarılması və ehtiyac olan növlərin həmin siyahıya əlavə olunması, həmin növlərin populyasiyasının müəyyənləşdirilməsi, GPS məlumatların dəqiqləşdirilməsi və ətraf mühit faktorlarının təsirinin öyrənilməsi həyata keçiriləcək".

# Azad Rəhimov xatirələrdə yaşayacaq...

## Anım

*Məlum olduğu kimi, tanınmış ictimai-siyasi xadim, gənclər və idman naziri, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Azad Rəhimov ömrünün 57-ci baharında ABŞ-da müalicə aldığı xəstəxanada du?nyasını dəyis?di. Bu acı xəbər onu yaxından tanıyanları, idman ictimaiyyətini, dostlarını dərindən kədərləndirdi. İndi Azad Rəhimov onu yaxından tanıyanların, dostlarının, həmkarlarının xatirələrində yaşayır.*



**■ Azad Rəhimovla bağlı xatirələrini hafta.az-la bölüşən Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova deyib ki, mərhum nazirin yoxluğuna hələ də inana bilmir:**

"Azad müəllimlə xatirələrim o qədərdir ki... Elə insanı da incidən xatirələrdir. Azad müəllimlə 14 ildən çox onun rəhbərliyi altında bir yerdə işləmişəm. Bəlkə də kiməsə yad, kiməsə qeyri-səmimi görünə bilər. Doğrudan da bizim münasibətimiz rəhbər işçi münasibəti deyildi. Azad müəllimi mənəvi atam hesab edirdim. Valideynlərim onu ailəmizin üzvü bilirdi. Onun şəkli həm öz evimdədir, həm də valideynlərimin evindədir. O, böyük bir dağ idi, insanların çoxu ona söykənmişdi. Hamıya can yandırırdı. Tanıyan, bilən hamı onu sevirdi. Sinif yoldaşları günü bu günə kimi onunla dost idilər. Onların məktəb dostluğu ayrı idi, institut dostluğu ayrı idi. Dostlarına can yandıran, onlara bağlı olan insan idi. İşçilərlə münasibəti də bir başqa idi. O anı xatırlamıram ki, hansısa işçi Azad müəllimə salam versin, Azad müəllim onun salamanı almasın. Kimliyindən asılı olmayaraq, hamıya gülümsəyərək salam verirdi. Eyni zamanda, çox gözəl ailə başçısı idi. Həqiqətən özümü xoşbəxt hiss edirəm ki, elə bir insanla 14 il bərabər çalışmışam.

Mən Azad müəllimdən çox şey öyrənmişəm. O, böyük məktəb idi. İstər insanlara, istər işə olan münasibəti tamamilə başqa idi. İnsanlara münasibətdə nə qədər yumşaq, kövrək idisə, iş barəsində sərt idi. Bilərəkdən edilən səhvi bağışlamırdı. Bilmədən edilən səhvə görə heç vaxt səni sərt tənqid etməzdi. Bilmədən edilən səhvin məsuliyyətini də öz üzərinə götürərdi.

Deyərdi ki, gərək mən sənə onu ətraflı izah edərdim ki, sən də səhv etməzdin. O, çox unikal şəkildə işçisinə müstəvi açmağı bacarırdı. İşçisinə güvənirdi. Tutaq ki, sənə bir layihə verəndə, həm də sənə güvən verirdi. Yəni mən sənə inanıram, get bu layihəni işlə. Onun aləmində işini sevməli idin, işə mütləq məsuliyyətli yanaşmalı idin. Həmişə deyirdi ki, işi sevə-sevə, ürəkdən gör. Onun gözəl bir xüsusiyyəti də o idi ki, əgər sən işi ürəkdən, sevə-sevə görürdünsə, onu hamının yanında deyirdi".

Səmayə Məmmədova, həmçinin Azad Rəhimovun Vətəninə, millətinə bağlı bir insan olduğunu da vurğulayıb: "Məsələn, gənclər Azərbaycan Himnini oxuyanda o, həmişə ağlayırdı. Haşiyədən kənara çıxıb bir məqamı qeyd etmək istəyirəm. Londonda Olimpiya Oyunlarında bərabər oturub yarışı izləyirdik. Birdən qayıdıb məndən soruşdu ki, "Daha çox hansı ölkəni sevirsən?". Mən də dedim ki, "Azad müəllim, İtaliyanı, Mərakeşi çox sevirəm". Mən də eyni sualı ona verdim. Qayıtdı ki, "Səmayə, mən dünyanı nə qədər gəzsəm də, Azərbaycanda tapdığım rahatlığı, dincliyi heç yerdə tapa bilmirəm".

O, Vətənini bax, belə sevirdi, çox bağlı idi Azərbaycana. Əslində, Azad müəllimlə bağlı çox danışmaq olar. Onun vəfat xəbərini alanda həyatımda ilk dəfə, sanki nəfəsimin bir anlıq dayandığını hiss elədim. Təbii ki, hər birimizin həyatında doğmaları, yaxınları var. Amma doğrudan da düz deyirlər ki, doğmalıq qandan gəlmir, doğmalıq münasibətdən, ünsiyyətdən gəlir. Doğmalıq ürəkdən-urəyə gəlir və onu da bizə Azad müəllim yaşatdı".

**■ Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, Olimpiya və ikiqat Avropa çempionu Elnur Məmmədli də gənclər və idman naziri Azad Rəhimovla bağlı xatirələrini hafta.az-la bölüşüb.**

Həmsöhbətimiz deyib ki, Azad Rəhimov təkcə idman naziri deyil, həm də idmançıların dostu idi: "Azad müəllim 2006-cı ildə cənab Prezidentimizin sərəncamı ilə gənclər və idman naziri təyin olunmuşdu. O, təkcə idman naziri deyil, həm də bizimlə dost, sirdaş, böyük ürəyə malik insan idi. Azad Rəhimov böyük ziyalı ailəsində dünyaya gəlmişdi. Onun bütün davranışları, hərəkəti necə dəyərli bir nəslin nümayəndəsi olduğunu bir daha təsdiqləyirdi. Hər zaman idmançılara dəstək olurdu, daim yanımızda idi. Hər kəslə yaxından maraqlanırdı. Gözəl ailə başçısı idi. Ən əsası, vətənpərvər, Vətənini sevən bir insan idi. Təəssüf ki, belə bir nazirimizi itirdik".



*"O, çox unikal şəkildə işçisinə müstəvi açmağı bacarırdı. İşçisinə güvənirdi...*

*Həmin Olimpiada nazir təyin olunduqdan sonra onun ilk böyük yarışı idi...*

O, daha sonra bildirir ki, mərhum nazir 2008-ci il Pekin Olimpiadası zamanı idmançılara çox böyük dəstək verib: "Yarışdan öncə idmançıları otağına dəvət edərək, hər birimizə uğurlar arzuladı. Həmin vaxt çox böyük motivasiya aldım. İlk sözü o oldu ki, yeni idman naziri təyin olunmuşam, ümidim sizlərədir, məharətinizi göstərin. Hər görüşümdən sonra tatamiyə, paltardəyişmə otağına yaxınlaşırdı. Görürdüm ki, çox həyəcanlıdır. İlk dəfə belə insan görürdüm. Azərbaycan vətəndaşı, ölkəsini sevən bir insan kimi çox stress keçirirdi. Yəni, öz işinə həqiqətən can yandırırdı.

Hər görüşdən sonra medala yaxınlaşdıqca həyəcan artırdı. Mənə dedi ki, Olimpiya çempionu olduğun, Azərbaycan Bayrağını qaldırdığın üçün çox sağ ol. Həmin Olimpiada nazir təyin olunduqdan sonra onun ilk böyük yarışı idi. Cüdo yarışlarında, idman tədbirlərində məni yüksək səviyyədə təqdim edir, mənimlə fəxr etdiyini söyləyirdi. Deyirdi ki, bu yaşımadək belə yarışma, mübarizə görməmişəm. Bir daha ona Allahdan rəhmət diləyirəm, Allah günahlarını bağışlasın".

Qeyd edək ki, Azad Rəhimovun vəfatını nazir həmkarları da dərin kədər hissi ilə qarşılayıblar. Təhsil naziri Emin Əmrullayev özünün feysbukdakı səhifəsində gənclər və idman naziri Azad Rəhimovun dünyasını dəyişməsini dərin kədər hissi ilə qarşıladıqlarını yazıb: "Azad Rəhimov ölkəmizdə gənclər və idman siyasətinin inkişafında böyük xidmətləri olan nikbin, xalqını sevən dövlət xadimi kimi yaddaşlarda qalacaq. Ailəsinə və yaxınlarına səbir diləyirik".

**■ Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkələrdəki paylaşımında Azad Rəhimovun vəfatı xəbərindən dərindən kədərləndiyini dilə gətirib:** "Azad müəllim sadəliyi, işgüzarlığı ilə seçilən, gülərüz, həyat eşqi ilə dolu insan idi. Vətəninə sadiq, dövlətini sevən, xalqına bağlı ictimai xadim, hamıya qayğı ilə yanaşan səmimi dost idi, Azad müəllim. Həmkarımızın əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Ailəsinə və yaxınlarına səbir diləyirəm, bu itki hər birimizi dərindən ağrıtdı. Allah rəhmət eləsin".

Xatırladaq ki, Azad Rəhimov 1964-cü il oktyabrın 8-də Bakıda anadan olub. Təhsilini 1971-ci ildə Bakı şəhəri 134 saylı məktəbinin birinci sinfində başlayıb. 1981-ci ildə həmin məktəbdə orta təhsilini bitirib və həmin il Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsinə daxil olub. 1986-cı ildə həmin fakültəni bitirərək, ingilis dili müəllimi ixtisası üzrə ali təhsil alıb.

Azad Rəhimov iş təcrübəsinə 1984-cü ildə Xətai rayonu 245 saylı məktəbdə komsomol katibi vəzifəsi ilə başlayıb. 1987-1989-cu illərdə Azərbaycan LKGI Xətai rayon komitəsində şöbə müdiri, 1989-1990-cı illərdə Azərbaycan Gənclər Təşkilatları Komitəsinin sədri vəzifəsində işləyib.

1994-1998-ci illərdə "Ros-İMESKO" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktoru, 1998-ci ildən 7 fevral 2006-cı il tarixədək "İtaldizayn" Qapalı Tipli Səhmdar Cəmiyyətin baş direktoru vəzifəsində çalışıb.

O, Azərbaycan Prezidentinin 7 fevral 2006-cı il tarixli Sərəncamı ilə Gənclər və İdman Naziri vəzifəsinə təyin edilib.

Azad Rəhimov Azərbaycan Prezidentinin 29 iyun 2015-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni, 24 iyul 2019-cu il tarixli Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

*✍ Sevinc*

# Epidemioloji durumla bağlı son vəziyyət

## Pandemiya

**Hazırda ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı epidemioloji durum müsbət istiqamətdədir. Bir neçə gündür davamlı olaraq yoluxma hallarının sayında azalma qeydə alınır. Bununla yanaşı, COVID-19-dan sağalanların sayının yeni yoluxma hallarını üstələməsi sevindiricidir. Aktiv xəstələrin sayının azalması səhiyyəyə düşən yükün azalması deməkdir. Hesab edirəm ki, bu tendensiya davam edəcək. Hafta.az xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.**



**Təyyar Eyvazov,**
Səhiyyə Nazirliyinin baş infeksionisti

O, bildirib ki, müsbət tendensiyanın səbəbləri hamını düşündürür: "Keçən ilin mart ayı ilə indiki dövrü müqayisə etsək, görərik ki, o zaman bizim qorunma alətlərimiz yalnız sərt karantin tədbirləri, fərdi qoruyucu vasitələrdən istifadə və gigiyena qaydalarına əməl olunması idi. Hazırda siyahıya bir neçə amil də əlavə olunub. Bunlardan ən önəmlisi vaksinasiya prosesidir. Yanvarın 18-dən başlayan vaksinasiya hazırda uğurla davam edir. İki doza alanların sayı yarım milyonu ötüb. Həmin şəxslər immunitet əldə etmiş və qoruyuculuğu yaranmış insanlardır. Lakin onların sayı azdır və bu, bizi qane edə bilməz. Digər tərəfdən, xəstələnib təbii yolla immunitet qazanan insanlar da var. Rəsmi statistikaya görə, onların sayı 320 minin üzərindədir. Bilirik ki, həmin statistika heç də tam mənzərəni əks etdirmir. Virusa yoluxanların sayı dəfələrlə çoxdur. Bu, bütün dünyada belədir. Xəstəliyi simptomsuz keçirənlər, qeydiyyata düşməyənlər çoxdur.



Onların hamısında bu və ya digər dərəcədə təbii immunitet formalaşır. Həm vaksinasiya olunanlar, həm xəstəliyi istər simptomatik, istərsə də assimptomatik keçirənlər immunlaşmış təbəqəni əmələ gətirirlər. Belə insanların sayı gündən-günə artır. Vaxt keçdikdə immunlaşmış, xəstəliyə həssas olmayan insanların sayı artır ki, bu da yoluxma hallarının azalmasında özünü göstərməlidir.

Müsbət dinamikada əhalinin müəyyən qədər maariflənməsi də mühüm rol oynayır. Vətəndaşların əksəriyyəti öz ətrafında, yaxınlarında infeksiyaya yoluxma, hətta ağırlaşma və ölüm hallarının şahidi oldu. Həm aparılan maarifləndirmə işləri, həm də vətəndaşların şəxsi təcrübəsi onları koronavirusa inanmağa sövq etdi. Hazırda vətəndaşlar qızıl qaydalara kifayət qədər əməl edirlər. Bunu hər yerdə müşahidə edirik. Bu da müsbət dinamikada rol oynayır. Lakin belə bir tendensiya var. Say azaldıqca arxayınlaşma baş verir və vətəndaşlar bir neçə ay bundan əvvəl yaşananları unudurlar. Nəticədə həmin qaydalara laqeyd münasibət başlayır. Havalar istilənməyə doğru getdiyindən belə vaxtlarda maska istifadəsi fiziki olaraq çətinlik yaradır. Həmçinin azalma baş verdikcə yaxın vaxtlarda yenidən qaydalara etinasız münasibət göstərən vətəndaşların sayının artdığını görəcəyik. Belə olan halda yenidən mənfi tendensiya ilə üzləşə bilərik.

*"Havalar istilənməyə doğru getdiyindən belə vaxtlarda maska istifadəsi fiziki olaraq çətinlik yaradır...*

Yoluxma saylarının azalmasına təsir edən təbii amilləri də qeyd etmək lazımdır. Ola bilər ki, onlar birbaşa yox dolayı yolla təsir göstərirlər. Belə ki, havaların isinməsi ilə əlaqədar insanlar daha çox açıq məkanlara üstünlük verirlər. Qapalı məkanlarda nəfəsliklər açılır, otaqların havası tez-tez dəyişdirilir. Bunlar da yoluxma hallarının müəyyən qədər tempinin azalmasına təsir edirlər. Ümumiyyətlə bir neçə faktorun cəmi hazırkı mənzərənin müşahidə edilməsinə səbəb olur".

*✍ Banu*

# "Qırmızı kitab"a düşəcək növlərin sayı artır

**Təəssüf hissi ilə qeyd edirik ki, bu gün Azərbaycanda "Qırmızı kitab"a düşəcək növlərin sayı artır. Bunu jurnalistlərə açıqlamasında Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib.**

Onun sözlərinə görə, bu vaxtadək nəşr edilən birinci "Qırmızı kitab"da 108 fauna və 140 flora növü qeyd edilib. İkinci kitabda isə 223 fauna və 300 flora növü yer alıb: "Üçüncü "Qırmızı kitab"a daxil ediləcək flora və fauna növlərinin sayının artması istisna deyil. Həm iqlim dəyişmələri, həm antropogen təsirlərin artması növlərin nadirləşməsinə, bəzi hallarda populyasiyasının yer üzündən silinməsinə səbəb olur. Azərbaycanda antropogen və iqlim təsirlərin güclü olması bəzi həssas növlərin kritik həddə yaxınlaşmasına səbəb olub. Yeni kitabda rəqəmlər dəyişəcək. Bəzi növlər var ki, tək-tək də olsa, onların sayı artıq kitabdan çıxarılaraq xüsusi siyahılara salınacaq". Nazir müavini vurğulayıb ki, yeni kitab daha müasir olacaq: "Qiymətləndirmə beynəlxalq meyarlara uyğun aparılacaq. Növlərin bəziləri rəssamlar tərəfindən çəkiləcək. Təəssüf hissi ilə qeyd edirik ki, bu gün Azərbaycanda "Qırmızı kitab"a düşəcək növlərin sayı artır. Nazirin əmri ilə komissiya yaradılıb. Bu gün də ilk iclas keçirildi və mühüm qərarlar alındı".

## GÜNÜN FOTOSU



Türkiyədə 1 May nümayişlərindən maraqlı görüntü...

## "Dünyada erməni məsələsini təbliğ edən 450 vəqf, dərnək, institut var"

**Süleyman Kocabaş,**
türkiyəli tarixçi-yazar

Soyqırım müstəvisində dünyada ən böyük haqsızlığa məruz qalmış millət türklərdir...

▸▸ Səh. 4

## STATİSTİKA



■ Dünyanın 20 ən varlı qadına mirasları ya ərlərindən, ya da atalarından qalıb.

■ Dünyada yalnız 2 faiz qadın özünü ideal gözəl hesab edir.

■ ABŞ-da biznesmenlərin 30 faizi qadınlardır.

■ Aparılan statistik araşdırmalara əsasən, qadınlar orta hesabla ömürlərinin 17 ilini pəhriz saxlayırlar.



▸▸ Səh. 7

## Bərdədə ermənilərin anasız qoyduğu körpənin taleyi...